**EVDƏ QAL, SAĞLAM QAL!**

**Mavritaniya saytlarında ümummilli lider Heydər Əliyev haqqında məqalə dərc edilib**



Bax 5

**Heydər Əliyev Fondu Azərbaycanın beynəlxalq nüfuzunun artmasına böyük töhfələr verir**



Bax 6




# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 081 (6046) 14 may 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


# İlham Əliyev: "Bizim iradəmiz möhkəmdir, heç kim bizim iradəmizə təsir edə bilməz!"

Bax 2



*"Xalq da cinayətkarları, rüşvətxorları, gözü doymayanları yox, bizi dəstəkləyir. Mən bu dəstəyi hər gün hiss edirəm"*

## "Azərbaycan nasizmin qəhrəmanlaşdırılmasının hər hansı təzahürlərini həmişə qətiyyətlə pisləyib"

Bax 5



*"Bu günlərdə "Nasionalnaya oborona" jurnalında Azərbaycan Prezidenti İlham Əliyevin böyük müsahibəsi dərc olunub. Prezident İlham Əliyevin həmin müsahibədə rəqəmlərə istinad edir. Mən də Azərbaycan dövlətinin başçısının rəsmi mövqeyinə istinadla bildirirəm ki, Böyük Vətən müharibəsi illərində Sovet İttifaqında hasil edilən ...*

## Hikmət Hacıyev: "Azərbaycan COVID-19-a qarşı mübarizədə də təşəbbüskar dövlət kimi çıxış edir"



Bax 9

*Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda koronavirus pandemiyasına qarşı ciddi mübarizə aparılır. Görülən işlər beynəlxalq ictimaiyyət tərəfindən də yüksək qiymətləndirilir və Azərbaycan...*

## DSX-nın vəzifəli şəxslərinin qanunazidd əməlləri ilə bağlı cinayət işi başlandı

Bax 9



Baş Prokurorluğun Mətbuat xidmətinin rəhbəri Eldar Sultanov Dövlət Təhlükəsizliyi Xidməti və Baş Prokurorluğun Dövlət Sərhəd Xidmətinın Sahil mühafizəsinin vəzifəli şəxslərinin qanunsuz əməllərinin ifşa edilməsi ilə bağlı keçirilən əməliyyata münasibət bildirib. E.Sultanov SİA-nın sorğusuna cavabında keçirilən əməliyyatı...

## Nikol Paşinyanın Njdeni nəyə görə əzizləməsinin sirri açıldı!



Bax 8

*Böyük Qələbənin 75 illiyini keçmiş sovet respublikalarında müxtəlif şəkildə qeyd ediblər. İndi müstəqil dövlətlər olan, vaxtilə SSRİ-nin tərkibinə daxil olmuş və faşizmə qarşı çiyin-çiyinə döyüşmüş bu respublikaların...*

## DSX: Düşmən Qazaxda yaşayış evlərini, hərbi və mülki nəqliyyat vasitələrini atəşə tutub



Bax 5

Azərbaycan Respublikasının Ermənistan Respublikası ilə dövlət sərhədində düşmən tərəfinin təxribatları davam edir...

**"Cəmil Həsənli namərdliyin, ikiüzlülüyün əsasnaməsini, kodeksini yazacaq adamdır"**



Bax 14

**Sərdar Cəlaloğlu: "Azərbaycan müxalifəti korrupsiyaya qarşı mübarizədə İlham Əliyevi dəstəkləməlidir"**



Bax 13

**Messi yeni imicdə**



Bax 16

# İlham Əliyev: “Bizim iradəmiz möhkəmdir, heç kim bizim iradəmizə təsir edə bilməz!”

*“Xalq da cinayətkarları, rüşvətxorları, gözü doymayanları yox, bizi dəstəkləyir. Mən bu dəstəyi hər gün hiss edirəm”*



***“Dövlət pul ayırır, rayon icra hakimiyyəti tikinti ilə məşğul olur. Tikintilərdə də nə qədər pozuntular var, nə qədər pul mənimsənilir, bütün bu faktların hamısı üzə çıxır. Ondan sonra da o mənzillər ki, pulsuz verməlidirlər həmin insanlara, onlardan da rüşvət tələb olunur. Hər addım cinayət, hər addım rüşvət. Buna son qoyulacaq! Heç kimdə şübhə olmasın!”***

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 13-də Azər Qocayevi Kəlbəcər Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsinə təyin olunması ilə əlaqədar videoformatda qəbul edib. AZƏRTAC xəbər verir ki, videoqəbulda çıxış edən Prezident İlham Əliyev qeyd edib ki, gənc nəslin nümayəndələri mərkəzi və yerli icra orqanlarının rəhbərliyinə gətirilir. Bu, düzgün addımdır:***

-Siz bu gün Kəlbəcər Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsinə təyin edilirsiniz. Bu, sizə göstərilən böyük etimaddır. Siz bu etimadı doğrultmalısınız. Siz gəncsiniz, cəmi 34 yaşınız var. Sizin təyinatınız, eyni zamanda, onu göstərir ki, gənclərə bu gün çox böyük imkanlar yaradılır, onların fəaliyyəti üçün bütün şərait yaradılıbdır və gənclər məsul vəzifələrə təyin edilirlər.

Son vaxtlar, xüsusilə bu sahədə daha ciddi addımlar atılır. Gənc nəslin nümayəndələri mərkəzi və yerli icra orqanlarının rəhbərliyinə gətirilir. Hesab edirəm ki, bu, düzgün addımdır. Çünki gənclər cəmiyyətimizin fəal təbəqəsidir. Bizim gənclərimizin mütləq əksəriyyəti milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə alıb və bu gün ölkəmizin hərtərəfli inkişafı üçün öz biliklərini ortaya qoymağa hazırdırlar.

Ümumiyyətlə, gənclər son illər ərzində ictimai həyatda çox fəal rol oynayırlar. Mən xüsusilə könüllüləri qeyd etmək istərdim. Bu il mənim Sərəncamımla “Könüllülər ili” elan edilmişdir. Mən çox şadam ki, qısa müddət ərzində Azərbaycanda çox böyük, çoxminli könüllülər ordusu yaradılıb və könüllülər öz işi, öz əməlləri ilə cəmiyyətdə çox böyük rəğbət qazana biliblər, bizim ümumi işimizə çox böyük töhfə verirlər. Könüllülər hərəkatı ASAN könüllülərdən başlamışdır. Bu gün ASAN könüllüləri, sözün əsl mənasında, Azərbaycan gəncliyinə xas olan ən gözəl xüsusiyyətləri özlərində birləşdirirlər, o xüsusiyyətləri təcəssüm etdirirlər. Hazırda digər sahələrdə də könüllülər kifayət qədər geniş fəaliyyət göstərirlər. Mən daim onların fəaliyyətini izləyirəm və onların fəaliyyətinə yüksək qiymət verirəm. Mənim göstərişimlə mərkəzi və yerli icra orqanlarında da könüllülər işə cəlb edilməlidirlər. Siz də icra hakimiyyəti başçısı kimi bu məsələyə diqqət yetirin ki, həm ictimai nəzarət baxımından işlər daha yaxşı getsin, həm ictimai fəallıq artsın və bu gün insanları narahat edən məsələlər öz həllini tapsın. Buna nail olmaq üçün əlbəttə ki, ilk növbədə, mərkəzi və yerli icra orqanları səmərəli fəaliyyət göstərməlidirlər, eyni zamanda, ictimai nəzarət yüksək səviyyədə olmalıdır. Ona görə sizin təyinatınız həm sizə göstərilən etimaddır, eyni zamanda, gənclərə göstərilən diqqətdir. Bir daha demək istəyirəm ki, siz bu yüksək etimadı öz işinizlə doğrultmalısınız.

Kəlbəcər Azərbaycanın ən gözəl diyarlarından biridir. Kəlbəcərin füsunkar təbiəti, gözəl meşələri, dağları, çayları, tarixi abidələri Azərbaycan xalqının milli sərvətidir. Əfsuslar olsun, erməni vandalları tərəfindən Kəlbəcərdə və işğal edilmiş digər torpaqlarda yerləşən tarixi abidələrimizin mütləq əksəriyyəti, demək olar ki, hamısı dağıdılıb, yaxud da yarıdağılmış vəziyyətdədir. O cümlədən Kəlbəcər rayonunun ərazisində Azərbaycan xalqına məxsus qədim tarixi abidələr dağıdılıbdır. Amma gün gələcək biz işğal edilmiş bütün torpaqlarda hazırda dağılmış vəziyyətdə olan bütün abidələri, bütün infrastrukturu bərpa edəcəyik. Azərbaycan öz suverenliyini bərpa edəcəkdir və bunu deməyə əsas verən bir çox amillər var. O cümlədən bizim beynəlxalq mövqelərimizin möhkəm olması, ölkəmizin ərazi bütövlüyünün bütün dünya tərəfindən qəbul edilməsi və son illər ərzində bütün aparıcı beynəlxalq təşkilatların qərar və qətnamələrində ölkəmizin ərazi bütövlüyünə birmənalı şəkildə dəstək ifadə edilir. O cümlədən bu yaxınlarda separatçılar tərəfindən keçirilmiş qondarma seçkilərin dünya birliyi tərəfindən tanınmaması və aparıcı beynəlxalq təşkilatların bu məsələ ilə bağlı yekdil fikri bir daha bizim mövqeyimizi gücləndirmişdir və separatçılara, onların havadarlarına, işğalçı Ermənistana vurulan növbəti zərbə olmuşdur. Bununla bərabər, əminəm ki, bizim artan iqtisadi potensialımız, hərbi gücümüz və bölgədə artan nüfuzumuz - bütün bu amillər Azərbaycan dövlətinin suverenliyinin tam bərpa olunmasına gətirib çıxaracaqdır. Hər bir Azərbaycan vətəndaşı öz işi ilə bu günü yaxınlaşdırmalıdır və bu istiqamətdə çox fəal iş aparılır.

Kəlbəcərin işğal altına düşməsinin səbəbkarı xəyanətkar AXC-Müsavat hakimiyyətidir. Məhz onların xəyanətkar və yarıtmaz fəaliyyəti nəticəsində 1993-cü ilin aprel ayında Kəlbəcər işğal altına düşmüşdür, vətəndaşlarımız həlak olmuşdur və Kəlbəcərdən olan bütün soydaşlarımız məcburi köçkün şəraitində yaşamağa məcbur olmuşlar. Bu cinayət AXC-Müsavat hakimiyyətinin birinci cinayəti deyildi. Şuşanın və Laçının işğal altına düşməsində də AXC-Müsavat tandeminin çox böyük mənfi rolu olmuşdur. O vaxt onlar Azərbaycanda hakimiyyət davası aparırdılar. Onların əsas məqsədi nəyin bahasına olursa-olsun hakimiyyətə gəlmək idi. Bu gün özünü radikal müxalifət adlandıran, əslində, indiki şəraitdə çox aciz durumda olan marginal qruplaşma nəyin bahasına olursa-olsun Azərbaycanda vəziyyəti pisləşdirmək istəyir. Təbii ki, onların buna nə gücü, nə də ağlı çatır. Ancaq onların niyyəti məhz budur: Azərbaycanı ləkələmək, ölkəmizin imicinə zərbə vurmaq, pandemiya dövründə apardığımız uğurlu siyasətə kölgə salmaq, xarici havadarlarının maraqlarını təmin etmək, satqın, xain təbəqə, “beşinci kolon” kimi xarici dairələrin əmrlərini yerinə yetirmək.

1992-ci ildə Şuşanın və Laçının işğal olunması AXC-Müsavat cütlüyünün gənc müstəqil Azərbaycan dövlətinə qarşı etdiyi satqınlıq, xəyanət və cinayətdir. Bir daha demək istəyirəm ki, o vaxt onların əsas məqsədi hakimiyyətə gəlmək idi. Hakimiyyət də kifayət qədər zəif idi, ona görə Şuşanın təhvil verilməsi, Laçının müdafiəsinin lazımi səviyyədə təşkil edilməməsi bilavasitə AXC-Müsavat hakimiyyətinin, o vaxt o partiyaların rəhbərliyinin və onların üzvlərinin cinayətidir. O vaxt guya ki, Şuşanın müdafiəsini təşkil edən bir ünsür, xain, satqın, başına papaq qoyan, ancaq Şuşanı qorxaq kimi tərk edib qaçan demişdi ki, əgər Şuşa işğal altına düşsə, başıma güllə vuracağam. Bu günə qədər müxtəlif dairələrdə fırlanır. Bax, onların əməli budur. Onlar Şuşanı təhvil veriblər ki, Azərbaycanda vəziyyət gərginləşsin, xalq ayağa qalxsın, hakimiyyət devrilsin və onlar hakimiyyətə gəlsinlər və belə də oldu.

*Ardı Səh. 3*

# İlham Əliyev: “Bizim iradəmiz möhkəmdir, heç kim bizim iradəmizə təsir edə bilməz!”

## *“Xalq da cinayətkarları, rüşvətxorları, gözü doymayanları yox, bizi dəstəkləyir. Mən bu dəstəyi hər gün hiss edirəm”*

**Əvvəli-Səh-2**

Bundan istifadə edərək, öz doğma torpaqlarını ermənilərə təhvil verərək AXC-Müsavat satqın cütlüyü 1992-ci ildə Şuşanın və Laçının işğalından sonra hakimiyyətə gəldi. Ancaq bir il ərzində ölkəmizi elə bərbad vəziyyətə qoydular ki, xalq ayağa qalxdı, onları süpürüb zibil yeşiyinə atdı və yeganə nicat yolunu Heydər Əliyevin simasında gördü. O vaxta qədər onlar Kəlbəcəri ermənilərə təhvil verməklə böyük cinayət törətmişdilər. Çünki Kəlbəcərin işğal altına düşməsi coğrafi baxımdan Dağlıq Qarabağla Ermənistan arasında bağlantı yaratdı və artıq bu, dəhliz deyildi, işğal altına düşmüş böyük bir ərazi idi. Bu, əlbəttə ki, ölkəmizə, gənc Azərbaycan dövlətinə vurulmuş böyük zərbə idi. Azərbaycan xalqı bunu unutmamalıdır, xalq düşmənlərini unutmamalıdır. Mən onları öz adları ilə çağırıram. Belə də olmalıdır. Çünki xalqa, dövlətə xəyanət edən xaindir. Xaricin maraqlarını burada təmin etmək istəyən, öz xalqına, öz xalqının, dövlətinin maraqlarına zərbə vurmaq istəyən düşməndir. Bunun başqa adı yoxdur. Hamı da bunu bilməlidir.

Siz gənc kadr kimi, ilk növbədə, məcburi köçkünlərə böyük diqqət göstərməlisiniz. Dövlət xətti ilə məcburi köçkünlərə çox böyük diqqət göstərilir. Fəaliyyətimizin bu istiqaməti 2003-cü ildə mənim Prezident kimi fəaliyyətə başladığım dövrdən əsas xətt kimi davam edir. Mən o vaxt demişdim ki, beş il ərzində Azərbaycanda bir dənə də olsun çadır şəhərciyi qalmayacaq. Ancaq biz buna dörd il ərzində nail ola bildik. 2007-ci ildə artıq Azərbaycanda bir dənə də çadır şəhərciyi qalmamışdı. Onu da bildirməliyəm ki, çadır şəhərciyi, o acı mənzərə də AXC-Müsavat hakimiyyətinin məhsulu idi. Ondan sonra biz köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun təmin edilməsi istiqamətində daha fəal işlər apardıq. Bu gün 300 mindən çox məcburi köçkün evlərlə, mənzillərlə təmin edilib. Təkcə keçən il 5 min köçkün ailəsi üçün mənzillər tikilibdir. Bu il isə bu rəqəm 7 minə və ola bilər 8 minə çatacaq. Ona görə dövlət öz üzərinə düşən bütün vəzifələri icra edir. Keçən il mənim Sərəncamımla məcburi köçkünlərin maddi təminatı da yaxşılaşdırılmışdır. Onlara verilən müavinətin həcmi 50 faiz artmışdır.

Siz daim xalq içində olmalısınız, vətəndaşlarla bir yerdə olmalısınız, onların problemlərini təhlil etməlisiniz. İlk növbədə, əlbəttə ki, vəziyyəti tam təhlil etməlisiniz və xalqın, məcburi köçkünlərin problemlərinin həlli işində fəal olmalısınız. Elə məsələlər ola bilər ki, yerli icra orqanlarının buna gücü çatmasın, onda siz mütləq mərkəzi icra orqanlarına müraciət etməlisiniz. O məsələlər ki, sizin səlahiyyətinizdə olacaq, təbii ki, bütün bu məsələlər imkan daxilində öz həllini tapmalıdır.

Əlbəttə ki, sosial ədalət prinsipləri üstünlük təşkil etməlidir. Ədalət hər bir sağlam cəmiyyətdə aparıcı ideya, aparıcı tezis olmalıdır. Çünki ədalətsizlik insanları incidir, ədalətsizlik insanlarda inamı qırır. Ədalətsizlik nəticə etibarilə böyük problemlərə gətirib çıxarır. Ona görə hər bir sahədə ədalət prinsipi bərqərar olmalıdır. Məsələn, bu il köçkünlərə 8 minə yaxın mənzil veriləcək. Bu mənzillərin verilməsində tam şəffaflıq olmalıdır. Həm Dövlətqaçqınkom və eyni zamanda, yerli icra orqanları burada birgə işləməlidirlər. Köçkünlərin dəqiq uçotu aparılmalıdır. Əfsuslar olsun ki, əvvəlki illərdə bu uçot lazımi səviyyədə aparılmırdı. Belə məlumatlar var ki, bəzən qəsdən aparılmırdı. Çünki dəqiq uçotun olmaması müxtəlif manipulyasiyaya yol açırdı. İndi biz araşdırma, təftiş aparırıq, görürük ki, köçkünlər üçün tikilmiş evlərdə bəzi hallarda heç köçkün statusuna aid olmayan insanlar yaşayır. İndi biz bəzi ictimai binaları boşaldırıq, köçkünləri yeni mənzillərə köçürürük, sonra da görürük ki, - məsələn, bu yaxınlarda mənə məlumat verildi, - bir binada yaşayanların 20 faizi heç köçkün deyildi. Necə gəliblər oraya? Kim onları yerləşdirib? Kim onları qeydiyyata alıb? Dövlət orqanları. Nəyinsə müqabilində bunu ediblər. Yoxsa necə ola bilər ki, köçkünlər üçün nəzərdə tutulan binada başqa insanlar yaşayır. Belə hallar var. Mənzillərin bölgüsündə mənfi hallar kifayət qədər çox idi. Mənə verilən məlumata görə, bəzi hallarda köçkünlərdən pul alırdılar. Halbuki, dövlət onları pulsuz mənzillərlə təmin edir. Bu faktlar da araşdırılır. Ona görə, ilk növbədə, dəqiq uçot aparılmalıdır. Dövlətqaçqınkoma bu məsələ ilə bağlı göstərişlər verilib. Aidiyyəti yerli icra orqanlarının rəhbərliyi bu məsələdə çox diqqətli olmalıdır və bu işlər birgə tənzimlənməlidir.



***“Kəlbəcərin işğal altına düşməsinin səbəbkarı xəyanətkar AXC-Müsavat hakimiyyətidir. Məhz onların xəyanətkar və yarıtmaz fəaliyyəti nəticəsində 1993-cü ilin aprel ayında Kəlbəcər işğal altına düşmüşdür, vətəndaşlarımız həlak olmuşdur və Kəlbəcərdən olan bütün soydaşlarımız məcburi köçkün şəraitində yaşamağa məcbur olmuşlar. Bu cinayət AXC-Müsavat hakimiyyətinin birinci cinayəti deyildi. Şuşanın və Laçının işğal altına düşməsində də AXC-Müsavat tandeminin çox böyük mənfi rolu olmuşdur”***

*“Bu gün özünü radikal müxalifət adlandıran, əslində, indiki şəraitdə çox aciz durumda olan marginal qruplaşma nəyin bahasına olursa-olsun Azərbaycanda vəziyyəti pisləşdirmək istəyir. Təbii ki, onların buna nə gücü, nə də ağlı çatır. Ancaq onların niyyəti məhz budur: Azərbaycanı ləkələmək, ölkəmizin imicinə zərbə vurmaq, pandemiya dövründə apardığımız uğurlu siyasətə kölgə salmaq, xarici havadarlarının maraqlarını təmin etmək, satqın, xain təbəqə, “beşinci kolon” kimi xarici dairələrin əmrlərini yerinə yetirmək”*

*Ardı Səh. 4*

# İlham Əliyev: “Bizim iradəmiz möhkəmdir, heç kim bizim iradəmizə təsir edə bilməz!”

## *“Xalq da cinayətkarları, rüşvətxorları, gözü doymayanları yox, bizi dəstəkləyir. Mən bu dəstəyi hər gün hiss edirəm”*

Əvvəli-Səh-3

Xoşagəlməz hallara qarşı ciddi mübarizə aparılmalıdır. Bu mübarizə bu gün öz nəticələrini verir. Mən bunu bir neçə dəfə demişəm ki, xoşagəlməz hallara, rüşvətxorluğa, korrupsiyaya qarşı mübarizə amansız olacaq. Bugünkü mənzərə bunu göstərir. Artıq beş icra hakimiyyəti başçısı həbs olunub və bütün o videomateriallar, ondan sonra istintaq materialları göz qabağındadır. Yəni, kasıb insanın çörəyini kəsmək, ona çatacaq vəsaiti mənimsəmək ən böyük cinayət sayıla bilər. Pandemiya dövründə aztəminatlı təbəqəyə nəzərdə tutulmuş yardımı vəhşicəsinə mənimsəmək vicdansızlıq və cinayətdir. Tutulan o beş icra hakimiyyəti başçısının beşi də bu çirkin əməllərlə məşğul olub. Biz bu vəsaiti ona görə ayırırıq ki, bu gün özünə iş tapa bilməyən adam heç olmasa minimum əməkhaqqı səviyyəsində əməkhaqqı alsın, evinə çörəkpulu aparsın. Bunlar ona da göz dikiblər. Yəni, gözləri doymur. Bu, bir xəstəlikdir və bu xəstəliyin müalicəsi artıq işə salınıb. Mən bir neçə dəfə xəbərdarlıq etmişəm, açıq demişəm ki, əgər əyri yoldan düz yola dönməsəniz, sonunuz pis olacaq, cəza tədbirləri tətbiq ediləcək. Ancaq bəziləri hesab edirdi ki, bu, onlara aid deyil. Bəziləri hesab edirdi ki, onlar qanundan üstündür. Yaxud da hesab edirdilər ki, kimsə onlara kömək göstərəcək, onların havadarları, onlara uzun illər ərzində dəstək verən yüksəkvəzifəli şəxslər. Mən demişəm ki, bu, olmayacaq. Həyat da bunu göstərdi. Ödəniş kartlarının, sosial yardımın oğurlanması bu cinayətin hələ cüzi bir hissəsidir.



*“Mən, eyni zamanda, demişdim ki, xoşagəlməz hallar təkcə yerli icra orqanlarında deyil, mərkəzi icra orqanlarında da var, siqnallar var, məlumatlar daxil olub. Demişdim, xəbərdarlıq etmişdim, əl çəkin bu işlərdən, əl çəkin! Hesab edirdilər ki, bunlara aid deyil. İndi isə bunun acı nəticələrini yaşayırlar”*

*“Artıq beş icra hakimiyyəti başçısı həbs olunub və bütün o videomateriallar, ondan sonra istintaq materialları göz qabağındadır. Yəni, kasıb insanın çörəyini kəsmək, ona çatacaq vəsaiti mənimsəmək ən böyük cinayət sayıla bilər. Pandemiya dövründə aztəminatlı təbəqəyə nəzərdə tutulmuş yardımı vəhşicəsinə mənimsəmək vicdansızlıq və cinayətdir”*

Bir çox rayonlarda yararsız vəziyyətə düşən çoxmərtəbəli binaların sökülməsi və onların yerində yeni binaların tikilməsi üçün mənim Sərəncamımla milyonlarla manat vəsait ayrılıb, milyonlarla. Amma sonra bəlli olur ki, o binalarda dövlət tərəfindən mənzillərlə təmin edilən insanlardan pul alınıb. Dövlət pul ayırır, rayon icra hakimiyyəti tikinti ilə məşğul olur. Tikintilərdə də nə qədər pozuntular var, nə qədər pul mənimsənilir, bütün bu faktların hamısı üzə çıxır. Ondan sonra da o mənzillər ki, pulsuz verməlidirlər həmin insanlara, onlardan da rüşvət tələb olunur. Hər addım cinayət, hər addım rüşvət. Buna son qoyulacaq! Heç kimdə şübhə olmasın! Bizim iradəmiz möhkəmdir, heç kim bizim iradəmizə təsir edə bilməz. Xalq da cinayətkarları, rüşvətxorları, gözü doymayanları yox, bizi dəstəkləyir. Mən bu dəstəyi hər gün hiss edirəm.

Mən, eyni zamanda, demişdim ki, xoşagəlməz hallar təkcə yerli icra orqanlarında deyil, mərkəzi icra orqanlarında da var, siqnallar var, məlumatlar daxil olub. Demişdim, xəbərdarlıq etmişdim, əl çəkin bu işlərdən, əl çəkin! Hesab edirdilər ki, bunlara aid deyil. İndi isə bunun acı nəticələrini yaşayırlar. Ona görə siz gənc kadr kimi icra başçısı vəzifəsində bu amilləri daim nəzərdə saxlamalısınız. Dürüstlük, şəffaflıq, ədalət hər bir dövlət məmurunun iş prinsipi olmalıdır. İş prinsipi bu olmalıdır, rüşvət yox, yalan yox, talançılıq yox, saxtakarlıq yox, vicdansızlıq yox! Dürüstlük, şəffaflıq, xalqa xidmət, ədalət - budur, prinsiplər! Bir daha deyirəm, əgər kimsə hələ də hesab edir ki, kimsə onlara kömək edəcək, səhv edir. Tutulan dövlət məmurlarının acı həyatını yaşamaq istəmirlərsə, düz yola qayıtsınlar.

Mən bir daha demək istəyirəm ki, sizə böyük etimad göstərilir və siz öz işinizlə bu etimadı doğrultmalısınız. Mən göstəriş vermişəm ki, bütün icra hakimiyyəti başçılarının və mərkəzi icra orqanlarının rəhbərlərinin fəaliyyəti ilə əlaqədar müntəzəm olaraq təhlillər aparılsın, onların əldə etdikləri nəticələr təhlil edilsin. Çünki hər bir rayonun inkişafı böyük dərəcədə rayona rəhbərlik edən şəxsdən asılıdır. Mən demişəm ki, bizim bütün rayonlarımız artıq dotasiya sistemindən çıxmalıdır. Bu istiqamətdə böyük işlər görülüb. Əvvəllər bütün rayonlarımız dotasiya ilə dolanırdı, dotasiyasız öz tələbatını ödəyə bilmirdi. İndi bir çox rayonlar artıq özləri-özlərini təmin edirlər, bu proses davam etdirilməlidir. Yerli vergilərin yığılması ilə əlaqədar şəffaflıq olmalıdır, dövlət vəsaitinin xərclənməsində tam şəffaflıq olmalıdır və rayonların sosial-iqtisadi inkişafı təmin edilməlidir. Onsuz da regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarında, - indi dördüncü proqram icra edilir, - bütün bu məsələlər təsdiq edilib, bütün infrastruktur layihələri, bütün əsas tikintilər, bütün sosial infrastruktur layihələri dövlət tərəfindən həyata keçirilir. Ona görə yerli icra orqanları bu istiqamətdə öz səylərini göstərməlidirlər. Bir daha demək istəyirəm, artıq tapşırıq verilib ki, vəzifəli şəxslərin fəaliyyətinin səmərəliliyi və buraxılan nöqsanlar ilə bağlı təhlillər aparılacaq və məlumat nəzarətdə olacaq. Eyni zamanda, ictimai nəzarət olmalıdır. Mən vətəndaşlara üz tutub deyirəm, ictimai nəzarət olmayan yerdə adətən pozuntular da olur. Ona görə siz də ictimaiyyəti bu işlərə cəlb edin, xalqla bir yerdə olun, xalqın problemləri ilə yaşayın və elə işləyin ki, vətəndaşlar da sizdən razı olsunlar, hakimiyyət də. Əgər vətəndaşlar sizin fəaliyyətinizdən razı olsalar, mən də razı olacağam. Sizə uğurlar arzulayıram, əminəm ki, öz işinizlə bu etimadı doğruldacaqsınız.

Azər Qocayev: Çox sağ olun, cənab Prezident. Biz gənclərə göstərdiyiniz dəstəyə və böyük etimada görə Sizə dərin təşəkkürümü bildirirəm. Mən də, öz növbəmdə, Sizi əmin etmək istəyirəm ki, göstərdiyiniz yüksək etimadı doğrultmaq, yüksək nəticələr, nailiyyətlər əldə etmək üçün dayanmadan çalışacağam. Sizə minnətdarlığımı bildirirəm, cənab Prezident.

Prezident İlham Əliyev: Sağ ol, sənə uğurlar.

# Mavritaniya saytlarında ümummilli lider Heydər Əliyev haqqında məqalə dərc edilib

***Mavritaniyanın "Əl-Havadis" və "Əl-Səfir" saytlarında ümummilli lider Heydər Əliyev haqqında məqalə dərc edilib. Azərbaycanın Mərakeşdəki səfiri Oktay Qurbanovun müəllifi olduğu məqalədə bildirilir ki, 10 may tarixində ümummilli lider, müasir müstəqil Azərbaycan dövlətinin banisi və qurucusu Heydər Əliyevin anadan olmasından 97 il ötür. Ümummilli lider Heydər Əliyev bu gün də Azərbaycanın hər bir vətəndaşının qəlbində yaşayır.***

Ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edilən məqalədə qeyd olunur ki, Azərbaycanın XX əsrdəki inkişafının əsası 1969-cu ilin 14 iyulunda Ümummilli Lider tərəfindən qoyulub. Həmin tarixdə siyasi hakimiyyətə gələn Heydər Əliyev Azərbaycanın müstəqil dövlət kimi qurulması üçün zəruri olan bütün işləri görüb. Ona görə də 1969-cu ilin 14 iyul tarixi Azərbaycanın müstəqillik tarixinin, parlaq və işıqlı yolunun başlanğıcı kimi qiymətləndirilir.

Müəllif yazır ki, Ulu Öndər Azərbaycan xalqının milli inkişaf konsepsiyasını irəli sürüb, cəmiyyəti bütün sahələr üzrə gələcək mənəvi və iqtisadi yüksəlişlərə ruhlandırıb. Azərbaycan xalqı Heydər Əliyevin dövlət quruculuğunda misilsiz xidmətlərini heç vaxt unutmayacaq. Ümummilli Lider Azərbaycanın ictimai-siyasi, mədəni həyatının müxtəlif sahələrində və proseslərdə gənclərin roluna həmişə xüsusi diqqət yetirirdi. Göstərdiyi misilsiz hünər və şücaətə, tarixi qəhrəmanlığa görə Azərbaycan xalqı Heydər Əliyevi özünün ümummilli lideri adlandırıb.

Yazıda Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun təhsil, səhiyyə, mədəniyyət sahələrində həyata keçirdiyi layihələr və mühüm tədbirlər barədə də məlumat verilir. Fondun fəaliyyətinin beynəlxalq ictimaiyyət tərəfindən də yüksək dəyərləndirildiyi qeyd olunur.

Məqalədə 2010-cu ildə Mavritaniya İslam Respublikasının Prezidenti Məhəmməd Uld Əbdüləzizin Azərbaycan Respublikasına səfərinin ikitərəfli münasibətlərdə yeni mərhələnin başlanğıcının olduğu vurğulanır. Səfər zamanı kənd təsərrüfatı, ticarət, mədəniyyət sahələrini, habelə iki ölkə arasında çoxşaxəli əməkdaşlığı əhatə edən sənədlər imzalanıb. Prezident Məhəmməd Uld Əbdüləzizin Prezident İlham Əliyevlə görüşü zamanı ikitərəfli münasibətlərin inkişafı üçün yaxşı imkanların olduğu vurğulanıb və bu səfərin əlaqələrin gələcək inkişafı baxımından önəmi qeyd edilib.

Müəllif qeyd edir ki, Heydər Əliyevin siyasi kursuna sadiq qalan Prezident İlham Əliyevin rəhbərliyi ilə bu gün Azərbaycan dinamik inkişaf edir, ölkədə demokratik və iqtisadi islahatlar aparılır. Postsovet ölkələri sırasında Azərbaycan qısa dövr ərzində keçid dövrünü başa vurmuş, beynəlxalq dialoq və sülh mərkəzinə, habelə prinsipial mövqeyi ilə seçilən güclü regional geosiyasi ölkəyə çevrilmişdir.




# Rusiyalı ekspert: "Azərbaycan nasizmin qəhrəmanlaşdırılmasının hər hansı təzahürlərini həmişə qətiyyətlə pisləyib"

***"Bu günlərdə "Nasionalnaya oborona" jurnalında Azərbaycan Prezidenti İlham Əliyevin böyük müsahibəsi dərc olunub. Prezident İlham Əliyevin həmin müsahibədə rəqəmlərə istinad edir. Mən də Azərbaycan dövlətinin başçısının rəsmi mövqeyinə istinadla bildirirəm ki, Böyük Vətən müharibəsi illərində Sovet İttifaqında hasil edilən bütün neftin 70 faizini, yanacağın 80 faizini və sürtkü yağlarının 90 faizini Azərbaycan verirdi".***



"Nasionalnaya oborona" jurnalının baş redaktoru İqor Korotçenko bu fikirləri neft sektorunun zəhmətkeşlərinin Böyük Vətən müharibəsində Qələbəyə töhfəsi mövzusuna həsr edilmiş onlayn konfransda söyləyib. Ekspert vurğulayıb ki, İkinci Dünya müharibəsi motorların müharibəsi idi, yəni konstruktor ideyaları, sənaye texnologiyaları olmasaydı, texnika kütləvi şəkildə istehsal edilməsəydi və yanacaqla təmin olunmasaydı, ordunun döyüş imkanları da olmazdı. Müharibə ərəfəsində SSRİ-də bütün sənayesi hərbi dövrə uyğun olaraq yenidən qurulmuşdu və bu işdə neft sahəsi həlledici rol oynayırdı.

İ.Korotçenko deyib: "Tanklar, aviasiya, avtomobillər, donanma - bütün bunlar yalnız yanacaqla təchiz olunduğu halda Qızıl Ordunun döyüşçülərinin əllərində silaha çevrilə bilərdi. Və Bakı nefti bunun üçün bütün imkanları verdi. Məlumdur ki, məşhur "Molotov kokteyli"ni Azərbaycan alimi ixtira etdi. Azərbaycan bizim ümumi Qələbəmizə çox böyük töhfə verib. Azərbaycan olmasaydı, Bakı nefti olmasaydı Qələbə sadəcə qeyri-mümkün olardı".

Ekspertin sözlərinə görə, Qafqaz uğrunda döyüş 1942-1943-cü illərin ən mühüm hadisəsi idi, həmin dövrdə sovet tərəfinin hədəfi Vermaxt qüvvələrinin Qafqaza soxulmasına yol verməməkdən ibarət idi. O deyib: "Hitlerin əsas strateji məqsədi - Azərbaycanı, Bakını tutmaq, Sovet Azərbaycanının neft mədənlərini Hitler Almaniyasının nəzarəti altına keçirmək idi. Bu niyyət baş tutmadı. Abver xətti ilə, Almaniyanın başqa xüsusi xidmət orqanlarının xətti ilə Azərbaycana çoxsaylı təxribat qrupları göndərilirdi. Mən Azərbaycan SSR-in dövlət təhlükəsizliyi orqanlarının əla işini xüsusi qeyd etmək istərdim. Onlar respublikanın ərazisində heç bir ciddi terror aktı törədilməsinə imkan verməyib və beləliklə, bizim ümumi qələbəmizə müəyyən töhfə veriblər".

İqor Korotçenko dana sonra bildirib ki, bu gün Azərbaycan neft sərvətlərini artırır, neftçıxarma və neft emalı sənayesini inkişaf etdirir: "Azərbaycan dünyada strateji sabitliyə və enerji sabitliyinə həlledici töhfə verir. Rusiya Azərbaycana postsovet məkanında özünün həmişə dəqiq, aydın və anlaşılan siyasət yürüdən strateji əhəmiyyətli tərəfdaşı kimi baxır. Azərbaycan dünyada və postsovet məkanında nasizmin qəhrəmanlaşdırılmasının hər hansı təzahürlərini həmişə qətiyyətlə pisləyib. Bu səbəbdən biz Böyük Vətən müharibəsi ilə bağlı xatirələrin qorunmasına yönəlmiş dəqiq və ardıcıl siyasətə görə bütün Rusiya xalqı adından Azərbaycana, onun Prezidenti İlham Əliyevə minnətdarlığımızı bildiririk. Biz buna görə, sabitliyin və əlbəttə, Rusiya ilə dostluğun möhkəmləndirilməsi üçün Azərbaycanın göstərdiyi səylərə görə Azərbaycan xalqına və onun Prezidentinə təşəkkür edirik".

# DSX: Düşmən Qazaxda yaşayış evlərini, hərbi və mülki nəqliyyat vasitələrini atəşə tutub



Azərbaycan Respublikasının Ermənistan Respublikası ilə dövlət sərhədində düşmən tərəfinin təxribatları davam edir.

Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, mayın 13-də saat 12:00-dan başlamaqla Qazax rayonunun Abbasbəyli kəndi, kənd yaxınlığındakı sərhəd-döyüş məntəqələrimiz, həmin istiqamətdə avtomobil yolu ilə hərəkət edən hərbi və mülki nəqliyyat vasitələri Ermənistan silahlı qüvvələrinin İcevan rayonunun Berkaber kəndi yaxınlığında yerləşən bölmələri tərəfindən iri çaplı silahlardan və snayper tüfənglərindən intensiv atəşə tutulub. Bir neçə yaşayış evinin damına zərər dəyib.

Düşmən təxribatının qarşısı alınıb, Ermənistan silahlı qüvvələrinin döyüş mövqeləri cavab atəşi ilə susdurulub.

# Avropa Komissiyası üzv dövlətləri sərhədləri açmağa çağırır

Avropa Komissiyası ağır şəkildə zərbə alan turizm sektorunu canlandırmaq üçün Covid-19 pandemiya prosesində qapalı sərhədlərin tədricən açılması üçün üzv dövlətlərə təkliflər verməyə hazırlaşır. SİA bunu xarici KİV-lərə istinadən xəbər verir. Avropa Birliyi iqtisadiyyatına əhəmiyyətli gəlir gətirən turizm sektoru son 2 ayda Avropa Birliyinin 27 ölkəsində demək olar ki, dayanıb. Şengen bölgəsində 17 ölkə Covid-19 yayılmasının qarşısını almaq üçün sərhəd nəzarəti mexanizmlərini işlədir. Avropa Birliyinin icra orqanı olan Avropa Komissiyası üzv ölkələrə səyahət qadağalarının qaldırılması üçün məcburi olmayan tövsiyələr verəcəkdir.

# Heydər Əliyev Fondu Azərbaycanın beynəlxalq nüfuzunun artmasına böyük töhfələr verir

## *16 illik fəaliyyəti dövründə əldə etdiyi nailiyyətlər fondun təkcə Azərbaycanda deyil, beynəlxalq aləmdə böyük nüfuz qazandığını göstərir*








Xeyriyyəçilik və humanizm kimi dəyərlərdən yoğrulmuş fəaliyyət insanlığa, bəşəriyyətə xidmət etmək kimi ali bir dəyərə söykənir. İllərdi ki, yorulmaq bilmədən çalışan və böyük əhəmiyyət kəsb edən, müasir dünyamızın çağırışlarına cavab verən layihələri ilə milyonlarla insanın sevgisini qazanan Azərbaycanın Birinci Xanımı, Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva gördüyü işlərlə mənəvi rahatlıq tapır. Bu fəaliyyət özünün vurğuladığı kimi, sarsılmaz həqiqətlərə söykənir: "Əxlaq və mənəviyyat, insaniyyət və şəfqət, inam və məhəbbət, xeyirxahlıq və saf niyyətlər Yaradanın hər birimizə bəxş etdiyi ən gözəl keyfiyyətlərdir" deyən Mehriban xanım Əliyeva valideynlərindən əxz etdiyi dəyərləri hər zaman üstün tutaraq, onların öyrətdikləri həqiqətə və mənəviyyata can atmağı özünün həyat məqsədinə çevirib: "Onlar öz varlığı ilə ləyaqət və şərəf hissinin hər şeydən üstün olduğunu aşıladılar. Öyrətdilər ki, alicənablıq və dürüstlük, mənəviyyat və şəfqət, xeyirxah əməllər, inam və məhəbbət - həqiqi xoşbəxtliyə və harmoniyaya aparan yoldur". Bəli bu yol böyük bir yoldur. İnsanlığa aparan yoldur. Söhbət insan anlamından gedirsə, bu məfhumun arxasında dayanan amillər ən böyük dəyərlərə yol açır.

### "UŞAQLIQ DÖVRÜ İNSAN HƏYATININ ƏN RƏNGARƏNG, ƏN YADDAQALAN VƏ ƏN XOŞBƏXT DÖVRÜDÜR"

Azərbaycanda uşaqların sağlam və gümrah böyümələri, onların Vətənə layiqli övlad kimi yetişməsi, mükəmməl təhsil almaları dövlətin daim diqqət mərkəzində saxladığı prioritet məsələlərdəndir. Azərbaycanın Birinci Xanımı Mehriban Əliyeva uşaqların xoşbəxt gələcəyi üçün bütün imkanlardan istifadə edir, bu sahəni daim diqqət mərkəzində saxlayır. Heydər Əliyev Fondunun bu sahədə gördüyü işləri isə sadalamaqla qurtaran deyil. "Uşaqlıq dövrü insan həyatının ən rəngarəng, ən yaddaqalan və ən xoşbəxt dövrüdür". Məhz bu illərdə, bu dövrdə insanın gələcək taleyinin, onun, fiziki və mənəvi sağlamlığının, vətəndaş mövqeyinin, insani cəhətlərinin əsası qoyulur", - deyən Mehriban Əliyeva onların xoşbəxt gələcəyi üçün müxtəlif layihələr həyata keçirib. Valideyn himayəsindən məhrum olunmuş uşaqların rifah halının yaxşılaşdırılması, hüquqlarının qorunması, cəmiyyətdə hərtərəfli inkişafı, onlara yüksək səviyyədə səhiyyə xidmətlərinin göstərilməsi Heydər Əliyev Fondunun diqqətdə saxladığı ən vacib məsələlərdəndir. Fondun prezidentinin təşəbbüsü ilə hazırlanmış "Uşaq evləri və internat məktəblərinin inkişafı Proqramı" çərçivəsində xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsil aldıqları onlarla internat məktəbi və uşaq evləri əsaslı təmir edilmiş, ən müasir avadanlıqlarla təchiz olunmuşdur. Hətta, kimsəsiz uşaqlara ev şəraitinə uyğun mühit yaradılmışdır. Gənc nəslin təhsili və sağlamlığının qorunması Heydər Əliyev Fondunun fəaliyyətinin prioritet istiqamətlərindən biri olduğundan Fond ölkədə həyata keçirilən təhsil və səhiyyə islahatlarında xüsusi fəallıq nümayiş etdirir.

Heydər Əliyev Fondunun bu sahədə həyata keçirdiyi tədbirlər isə birbaşa genefondun qorunmasına, bu sahədə mövcud problemlərin əsaslı həllinə yönəlmişdir. Məktəbəqədər hazırlıq müəssisələrinin, uşaq bağçalarının müasir standartlar səviyyəsində qurulması, onların maddi-texniki bazasının gücləndirilməsi Heydər Əliyev Fondunun diqqət mərkəzindədir. "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı" çərçivəsində ölkəmizdə uşaq evi və internat məktəbi əsaslı təmir olunub və bu müəssisələrdə yaşayan uşaqların problemlərini daim diqqətdə saxlanılıb. Müasir tələblərə cavab verən uşaq evlərində inşa edilmiş hamam, üzgüçülük hovuzu, yay konsert meydançası, stadion, iclas, idman, rəqs salonları, həyətdəki yaşıllıqlar, uşaqların əl işləri muzeysərgisi burada balacaların fiziki və əqli cəhətdən sağlam böyüməsi üçün hər cür şərait yaradıldığına, Fondun xeyirxah fəaliyyətinin bəhrəsinə əyani sübutdur. "Təhsilə dəstək", "Diabetli uşaqlara ən yüksək qayğı" kimi layihələri Onun humanizm prinsiplərindən qaynaqlanır. Bütün bu reallıqlar Mehriban Əliyevanın bir qadın, ana, ictimai xadim kimi fəaliyyətində reallığa çevrilib.

### "AZƏRBAYCAN - TOLERANTLIĞIN ÜNVANI"

Milli-mənəvi dəyərlərin qorunması və dini ziyarətgahların yenidən qurulması prosesinə fəal surətdə qoşulan Heydər Əliyev Fondunun ölkəmizdə həyata keçirdiyi "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində ölkədə bir neçə dini ocağın təmiri və yenidən qurulması həyata keçirilmişdir. Fondun təşəbbüsü ilə Gəncədə Comərd Qəssab və Cavad xan türbələri yüksək səviyyədə bərpa edilmişdir. Bu sırada paytaxtın Buzovna qəsəbəsində "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində əsaslı surətdə yenidən qurulan Cümə məscidi də xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan ərazisində, bütövlükdə Cənubi Qafqazda və Yaxın Şərqdə ən qədim müsəlman məbədlərindən olan Şamaxı Cümə məscidində əsaslı təmir və yenidənqurma işləri aparılmış, Qəbələdə isə yeni məscid inşa olunmuşdur. Azərbaycanda bütün dövrlərdə, ictimai-siyasi quruluşdan asılı olmayaraq, müxtəlif dillərdə danışan, müxtəlif dinləri təmsil edən insanlar sülh, əmin-amanlıq və qarşılıqlı hörmət şəraitində bir ailə kimi yaşayıblar. Bu gün də belədir. Müasir dünyamızda çoxkonfessiyalı və çoxmillətli Azərbaycan bu ənənələrə sadiqdir və bu, ən böyük sərvətlərdən biridir.

Təsadüfi deyildir ki, son illər mədəniyyətlərarası və sivilizasiyalararası dialoqa töhfələrini verir. Müasir dövrümüzdə Heydər Əliyev Fondu, nəinki Azərbaycanın, eləcə də, ümumdünya mədəni irsinin qorunmasına böyük əhəmiyyət verir. Fondun layihələrindən olan "Azərbaycan - tolerantlığın ünvanı" layihəsi çərçivəsində Avropada Versal Sarayının memarlıq abidələrinin, kafedral kilsənin vitrajlarının bərpası Azərbaycanda tolerantlığın, dözümlülüyün, dünya mədəniyyətlərinin rəngarəngliyinə hörmətin qədim və möhkəm kökləri olduğunu özündə bir daha ehtiva edir. Azərbaycanın Birinci Xanımı Mehriban Əliyeva Roma şəhərinin ətrafında yerləşən 60-a yaxın katakombaların bərpasında əhəmiyyətli işlərə imza atmışdır.

Ardı Səh. 7

# Heydər Əliyev Fondu Azərbaycanın beynəlxalq nüfuzunun artmasına böyük töhfələr verir

## *16 illik fəaliyyəti dövründə əldə etdiyi nailiyyətlər fondun təkcə Azərbaycanda deyil, beynəlxalq aləmdə böyük nüfuz qazandığını göstərir*



Əvvəli-Səh-6

Müqəddəs Marçellinio və Pietro katakombaları xristian aləmi üçün ən mühüm və ən maraqlı abidələrdən biridir və bu addım dinlər və mədəniyyətlərarası dialoqun daha bir parlaq nümunəsi olaraq tarixə yazıldı. Romanın belə nüfuzlu arxeoloji abidəsinin bərpasına töhfəsini verən Heydər Əliyev Fondu tarixi missiyasını həyata keçirmiş oldu. Heydər Əliyev Fondunun Fransanın Orn Departamentinin Santiyi, Fresnay o Sovaj, San-İler la Jerar, Tanvil, Kurjust, Revoyon və Mal yaşayış qəsəbələrində X-XII əsrlərə aid 7 kilsənin bərpasına yardım etməsi də "Azərbaycan - tolerantlığın ünvanı" layihəsi çərçivəsində reallığa çevrilib.

### Azərbaycan haqqında həqiqətlər dünyaya təqdim olunur

Azərbaycan haqqında həqiqətləri beynəlxalq ictimaiyyətə çatdırmağa önəm verən Heydər Əliyev Fondu tərəfindən həyata keçirilmiş layihələr sırasında "Qarabağ həqiqətləri" bukletlər toplusunun nəşri xüsusi əhəmiyyətə malikdir. Qarabağın tarixi, Ermənistan-Azərbaycan, Dağlıq-Qarabağ münaqişəsinin başlanması, onun nəticəsində ölkəmizə dəyən ziyan, Xocalı faciəsi, ermənilərin dünyanın müxtəlif ölkələrində törətdiyi terror aktları haqqında faktları əks etdirən və ingilis, fransız, alman, rus, macar dillərində nəşr olunmuş bukletlər indiyədək bir çox xarici ölkələrdə yayılmışdır. "Müharibə və tarixi-mədəniyyət abidələrimiz" kitabında Azərbaycanın işğal olunmuş ərazilərindəki ziyarətgahlar və digər tarixi-mədəniyyət abidələri haqqında ətraflı məlumat verilir. "Qarabağ həqiqətləri" silsiləsinin davamı olaraq 2007-ci ildə Heydər Əliyev Fondu Ermənistanın Azərbaycan mədəniyyətinə, maddi-mənəvi irsimizə qarşı məqsədyönlü şəkildə həyata keçirdiyi vandalizm siyasətindən və onun acı nəticələrindən bəhs edən "Azərbaycana qarşı müharibə: mədəni irsin hədəfə alınması" kitabını ingilis dilində nəşr etdirdi. Kitaba işğal olunmuş rayonlarımızdakı mədəni sərvətlərimizin siyahısı, xəritələr, habelə Ermənistan ərazisində və işğal altındakı bölgələrimizdəki tarixi və mədəniyyət abidələrimizin əvvəlki və indiki vəziyyətini əks etdirən videomateriallar əlavə olunub. Rus alimi, yazıçı-tarixçi, professor Rudolf İvanovun "Bəyazidin müdafiəsi: həqiqət və yalan", "Əlahəzrətin general - adyutantı. Hüseyn xan Naxçıvanski haqqında dastan", "Sovet İttifaqı adından" kitabları rus dilində nəşr olunub.Heydər Əliyev Fondu azərbaycançılıq ideyalarının çarçısı olaraq Azərbaycandan kənarda da amalını gerçəkləşdirmək yönümündə irimiqyaslı layihələri ilə çıxış edir. Onun böyük təşəbbüsü ilə müasir dövrümüzdə fondun ABŞ, Rusiya Federasiyası, Rumıniya və Türkiyədə nümayəndəlikləri fəaliyyət göstərir. Sözsüz ki, belə bir dövlətlərdə nümayəndəliklərin yaranması Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında əhəmiyyətlidir. Xüsusən, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyətini beynəlxalq ictimaiyyətə çatdırmağasında birmənalı olaraq fəaliyyətini davam etdirir. Bildiyimiz kimi, hər il dünyanın bir sıra böyük şəhərlərində - Moskva, Berlin, Strasburq, Brüssel, Buxarest, Cenevrə, Ankara, İstanbul, Paris, Praqa, Vaşinqton, Nyu-York, Varşava, London, Haaqa, Dubay, Kiyev və Tbilisidə Xocalı soyqırımının ildönümünə həsr olunmuş aksiyalar həyata keçirilir ki, bunların hər birində təşəbbüskar Heydər Əliyev Fondudur.

### Ölkəmizin maddi və mənəvi irsi YUNESKO-nun nadir əsərləri sırasındadır

Bu gün Azərbaycanla YUNESKO arasında əlaqələr davamlı şəkildə həyata keçirilir. Bu istiqamətdə Heydər Əliyev Fondunun apardığı məqsədyönlü fəaliyyətini xüsusi qeyd etməliyik. Azərbaycanın maddi və mənəvi irsinin YUNESKO-nun nadir əsərləri sırasına daxil edilməsi beynəlxalq əməkdaşlığın əsas göstəricilərindir. Belə ki, hazırda muğam ifaçılığı sənəti, Azərbaycan aşıq sənəti, Novruz Bayramı, Azərbaycan xalçası, Tar ifaçılığı sənəti, "Kəlağayı simvolizmi və ənənəvi sənəti" və s. YUNESKO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına, Çövkən-Qarabağ Atüstü Oyun ənənəsi isə YUNESKO-nun təcili qorunmaya ehtiyacı olan Qeyri-Maddi Mədəni İrs Siyahısında yer alması Azərbaycanla bu təşkilat arasında olan əməkdaşlığın davamlığını diqqətə çatdırır. Sözsüz ki, sadaladığımız nadir irsin bu siyahıya daxil edilməsində Heydər Əliyev Fondunun rolu xüsusidir. Qeyd edək ki, Mehriban xanım Əliyevanın beynəlxalq səviyyədə gördüyü işlər cavabsız qalmamış, dünya dövlətləri, nüfuzlu təşkilatlar tərəfindən müxtəlif adlara, mükafatlara layiq görülmüşdür. Onun hər bir uğuru Azərbaycanın nailiyyəti, yüksəkliyidir. O, 2004-cü ildən Azərbaycanın şifahi xalq ədəbiyyatının və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz səylərinə görə YUNESKO-nun Xoşməramlı səfiri adını daşıyır. 2005-ci ildə Mehriban xanım Əliyeva "İlin qadını" seçilib. Genişmiqyaslı xeyriyyəçilik fəaliyyətinə, bəşəriyyətin ali ideallarına xidmət sahəsində yüksək nailiyyətlərinə görə "Qızıl ürək" beynəlxalq mükafatına layiq görülməsi Onun dünya miqyasında əməllərinin birmənalı olaraq qiymətləndirilməsini əyani olaraq təsdiqləyir. Azərbaycan ilə Polşa arasında dostluq münasibətlərinin inkişafındakı xidmətlərinə görə Mehriban xanım Əliyeva Polşa Respublikasının "Xidmətlərə görə" Böyük Komandor Xaçı ordeni ilə təltif edildi. Bir il sonra isə Fransaya münasibətdə göstərdiyi xidmətlərinə və nümayiş etdirdiyi sadiqliyinə görə Fransa Respublikası Prezidentinin Sərəncamı ilə "Şərəf Legionu" ordeninin zabit dərəcəsi ilə təltif edildi. Elə həmin il uğur onu müşayiət etdiyindən YUNESKO-nun "Qızıl Motsart" medalı Mehriban xanım Əliyevaya təqdim olundu. Mehriban xanım Əliyeva Türk dünyası mədəni irsinin zəngin parçası olan Azərbaycan türklərinin maddi və qeyri-maddi mədəniyyət abidələrinin qorunması və təbliği sahəsində böyük xidmətlərinə görə TÜRKSAV-ın "Türk dünyasına xidmət" mükafatına layiq görülüb. Prezident İlham Əliyevin Sərəncamı ilə Mehriban Əliyeva Azərbaycanın ictimai-siyasi və mədəni həyatında səmərəli fəaliyyətinə görə "Heydər Əliyev Mükafatı" ilə təltif edilib.



Bütün bunlar Mehriban xanımın Azərbaycan xalqı qarşısında xidmətlərinə olan mükafat və qiymətdir. 2016-cı il yanvarın 21-də Avropada idmanın inkişafında göstərdiyi xüsusi xidmətlərə görə Avropa Olimpiya Komitələrinin İcraiyyə Komitəsinin qərarı ilə Avropa Olimpiya Komitələrinin ən yüksək mükafatı olan Ali Orden Mehriban Əliyevaya təqdim edilib. 2017-ci il dekabrın 26-da Rus Pravoslav Kilsəsinə göstərdiyi köməyə və Həştərxan şəhərinin abadlaşdırılmasına qayğısına görə Mehriban Əliyevaya II dərəcəli Müqəddəs Mələksima Knyaginya Olqa ordeni təqdim edilib. 2018-ci il sentyabrın 22-də Mehriban Əliyevaya idman aləmində və "Ədalətli oyunlar"ın təbliğində nümunəvi nailiyyətlərinə görə Beynəlxalq Ədalətli Oyunlar Komitəsinin "Xüsusi xidmətlərə görə" medalı təqdim olunub. 2019-cu ildə Mehriban Əliyeva Prezident Vladimir Putinin Fərmanı ilə Azərbaycan-Rusiya münasibətlərinin inkişaf etdirilməsi və möhkəmləndirilməsindəki xidmətlərinə görə Rusiya Federasiyasının "Dostluq" ordeni ilə təltif olunub. 2020-ci il fevralın 22-də mədəniyyətin, o cümlədən Müqəddəs Taxt-Tac təsisatları ilə qarşılıqlıəlaqələrin inkişafına verdiyi töhfələrə görə ona Papa Cəngavər Ordeninin ən ali dərəcəsi - IX Piy Ordeninin Böyük Xaçı təqdim edilib. Fəaliyyəti dövründə əldə etdiyi bu nailiyyətlər Fondun qeyri-hökumət təşkilatı olaraq həyata keçirdiyi layihələri ilə təkcə Azərbaycanda deyil, beynəlxalq aləmdə böyük nüfuz qazandığını göstərir. Gördüyü işlərində təvazökarlıq göstərir. "...Ömür boyu mənim həyat amalım belə olmuşdur ki, etmək istədiyin yaxşılığı heç vəchlə gözə çarpdırmaq olmaz. İndi mən bundan, demək olar ki, məhrumam. Birinci xanım statusunda mən elə bir xeyriyyə aksiyası keçirə bilmirəm ki, o, ictimaiyyətin diqqətini cəlb etməsin. Bu isə özünü göstərməkdən tamamilə uzaq adam kimi mənə kifayət qədər çətin olur". Mehriban Əliyeva həqiqətən gördüyü işlərlə kimliyini, böyüklüyünü bu dünyada gördüyü işlərlə reallaşdırır. Həyat və vəzifə missiyası bir etalon olaraq cəmiyyətə təqdim olunur. Bu təqdimatda Azərbaycan və onun inkişafı dayanır.

Heydər Əliyev Fondu ölkəmizin çətin zamanında xalqımıza dəstək oldu. Heydər Əliyev Fondu Azərbaycanda koronavirusun geniş yayılmasının qarşısının alınması istiqamətində dövlət tərəfindən həyata keçirilən tədbirlərə töhfə olaraq Koronavirusla Mübarizəyə Dəstək Fonduna 500 min manat vəsait köçürdü. Bununla yanaşı, Heydər Əliyev Fondu daim öz himayəsində saxladığı bir sıra müəssisələrə koronavirusla mübarizə sahəsində dəstək göstərib. Belə ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın tapşırığına əsasən, Fond tərəfindən Bakıda və regionlardakı körpələr və uşaq evlərinə, internat məktəblərinə, Pensiya yaşına çatmış şəxslər üçün sosial xidmət Müəssisəsinə, Uşaq Psixonevroloji Mərkəzə, eləcə də Bakıdakı və regionlardakı psixonevroloji sosial xidmət müəssisələrinə koronavirusla mübarizə tədbirləri çərçivəsində dezinfeksiyaedici vasitələr, maskalar və digər qoruyucu vasitələrdən ibarət yardımlar ayrılıb, qeyd olunan müəssisələr dezinfeksiya edilib, həmçinin Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın mövcud qaydalarının, sosial təcrid rejiminin tətbiq olunması üçün zəruri təşkilati dəstək göstərilib. 16 illik fəaliyyəti dövründə əldə etdiyi bu və ya digər nailiyyətlər fondun qeyri-hökumət təşkilatı olaraq təkcə Azərbaycanda deyil, beynəlxalq aləmdə böyük nüfuz qazandığını göstərir. Azərbaycanın çiçəklənməsi, beynəlxalq nüfuzunun artmasına böyük töhfələr verən Heydər Əliyev Fondunun gələcək fəaliyyətinin əsasında qeyd etdiyimiz məsələlərin daha da geniş bir planda həyata keçirilməsi dayanır.

**NƏZAKƏT ƏLƏDDİNQIZI**

# Nikol Paşinyanın Njdeni nəyə görə əzizləməsinin sirri açıldı!

***Böyük Qələbənin 75 illiyini keçmiş sovet respublikalarında müxtəlif şəkildə qeyd edirlər. İndi müstəqil dövlətlər olan, vaxtilə SSRİ-nin tərkibinə daxil olmuş və faşizmə qarşı çiyin-çiyinə döyüşmüş bu respublikaların əksəriyyəti bizim hamımız üçün müqəddəs olan bu əlamətdar gündə Vətənin nasist döyüşçülərdən azad edilməsi uğrunda həlak olmuş qəhrəmanların xatirəsini ehtiramla yad ediblər.***

Heç də təəccüblü deyil ki, Ermənistan bu dəfə də fərqlənib. Bütün sivil dünya torpaqların işğaldan azad olunmasını qeyd etdiyi bir vaxtda Ermənistanın baş naziri Nikol Paşinyan əksinə, Azərbaycanın Şuşa şəhərinin işğal olunmasının ildönümünü qeyd etmək üçün oraya uçub. Hitlerin öz qoşunlarını Moskvaya yeritmək və orada parad keçirmək niyyəti baş tutmamışdı. Erməni işğalçıların maşınları isə hələlik Şuşa küçələrində şütüyür, amma Paşinyanın kabinetində heç şübhə etməsinlər: bu işğalın da sonu yetişəcək, Cıdır düzündə, Xankəndidə və Qazaxdan başlamış Zəngilana qədər bütün dövlət sərhədi boyunca Azərbaycan bayrağı qaldırılacaq.

Lakin çox maraqlıdır ki, faşizm üzərində Qələbə Günündə Nikol Paşinyan bizim babalarımız tərəfindən darmadağın edilənlərin - faşistlərin yaltaq quyruqbulayanlarının, polislərin, satqınların, cəlladların, legionerlərin xatirəsini yad edib.

Hitlerin sevimlisi, Vermaxtın tərkibində Erməni Legionunun rəhbəri Qaregin Njdeni Paşinyanın necə canfəşanlıqla müdafiə etməsi hamımızın yadındadır. İndi Njdenin heykəli 1828-ci ildən Azərbaycanın qədim şəhəri İrəvanı "bəzəyir" (xatırladaq ki, İrəvan şəhəri 1501-ci ildə Azərbaycan şahı İsmayıl Səfəvinin əmri ilə salınıb. Şah İsmayıl öz veziri Rəvanqulu xana tapşırmışdı ki, Zəngi çayının sahilində bir qala ucaltsın. Vəzir növbəti yeddi il ərzində bu tapşırığı yerinə yetirib, İrəvan adı da buradan yaranıb). Qaregin Njde Hitlerin tərəfində, sovet xalqına qarşı döyüşmüş satqın olub və bu fakt heç kəs üçün sirr deyil.

Analitiklər uzun müddət baş aça bilmirdilər: Nikol Paşinyan bu faşist lakeyini nəyə görə bu qədər xoşlayır?

Məlum olub ki, bunun səbəbi çox sadə imiş. İş burasındadır ki, gələcək "inqilabçı", Ermənistanın indiki baş naziri doğma babasının şərəfinə belə adlandırılıb. Onun babası Nikol Vardanoviç Paşinyan 1913-cü il dekabrın 23-də Karvansara qəzasının Yenukavan kəndində doğulub (Azərbaycanın Qazax qəzasının qərbində yerləşən bu hissə sonradan Azərbaycandan alınıb Ermənistana verilib və ermənilər oranı İcevan rayonu adlandırıblar), Böyük Vətən müharibəsinin əvvəlində Qızıl Ordu sıralarına çağırılıb. Lakin fürsət yaranan kimi ermənilərin qədim ənənələrinə sadiq qalaraq əsla tərəddüd etmədən qaçıb faşistlər tərəfə keçib və ona başqalarından bir qədər çox çörək, yağ, tünd şnaps (alman arağı) verən tərəfin xeyrinə vuruşub. Bir sözlə, əsl erməni kimi hərəkət edib...

Onun necə vuruşması barədə susurlar. Lakin əvvəlki müharibə illərində onun həmqəbilələri - erməni banditləri Şərqi Anadoluda hücuma keçən rus əsgərlərinin arxasında gizlənərək qarətlər və zorakılıq törətmək üçün müsəlman kəndlərinə soxulduqları kimi, Nikol Vardanoviç Paşinyanın da öz yoldaşlarının arxasında gizlənərək "döyüşdüyü" məlum olsa, təəccüblənməmərik.

Dəqiq məlum olan budur ki, Ermənistanın indiki baş nazirinin babası Ukraynanın bugünkü Jitomir vilayəti sovet ordusu tərəfindən faşistlərdən azad ediləndən ilyarım əvvəl, yəni 1943-cü il sentyabrın 29-da bu vilayətin Zvyaqel kəndində haqlı olaraq məhv edilib. Sovet qoşunları yaxınlaşdıqca oradakı partizan dəstələrinin və gizli qrupların fəallığı artırdı. Buna görə istisna edilmir ki, hitlerçi-njdeçi Nikol Paşinyan məhz xalq könüllü dəstələrinin belə cəsarətli müqavimət əməliyyatlarının birində məhv edilib. Bu da məlumdur ki, Jitomir vilayətində yəhudi əhalini kütləvi şəkildə qırıblar. Bu iş əsasən SS polislərinə və digər murdar ünsürlərə tapşırılırdı. Ermənistanın indiki baş nazirinin babasının da məhz bu yolla çörəkpulu qazandığını bilsək təəccüblənməyək.

Paşinyan şəcərəsinin bu qəribə təfsilatı ictimaiyyət üçün üzə çıxanda kiçik Kolyan (yenə də erməni mif yaradıcılığının "ən yaxşı" ənənələri ruhunda) əlüstü "iki Nikol Paşinyan" haqqında nağıl uydurub. Həmin iki Paşinyandan biri həqiqətən satqın olub (bunu necə gizlədəsən, axı müvafiq arxiv sənədi dərc edilib), o birisi, yəni baş nazirin "doğma babası" isə guya "Vətən uğrunda, Stalin uğrunda" döyüşüb.

Amma qəribədir - Paşinyanın babası barədə "təmiz" arxiv sənədləri tapılmayıb. Satqının sənədləri var, qəhrəmanın sənədləri isə, nədənsə, yoxdur.

Belə yerdə nə deyəsən! Dostlar, əgər baş nazirin öz doğma satqın babasından imtina etməyə yöndəmsiz cəhdlərinə erməni ekspertlər özləri gülürlərsə, biz nə danışaq!

İkinci Dünya müharibəsi cəbhələrində neçə Nikol Paşinyan vuruşduğunu dəqiq deyə bilmərik. Onlar iki nəfər də ola bilər, iki yüz iyirmi iki nəfər də. Lakin onların hər ikisinin eyni gündə, eyni ucqar dağ kəndində doğulması, hər ikisinin atasının adının "Vardan" olması, sonra isə hər ikisinin eyni gündə dünyadan köçməsi ağlasığmazdır. Belə bir nağılla müqayisədə hətta "yaşı Romadan qədim" olan Yerevan haqqında mif də həqiqətə daha çox oxşayır...

Nəhayət, məhv edilmiş satqının fotoşəkli... Bugünkü baş nazir ilə onun zahiri oxşarlığı göz qabağındadır.

Buna görə də əsla təəccüblü deyil ki, Ermənistanın baş nazirinin mətbuat xidməti RF prezidenti Vladimir Putinin adına göndərilmiş təbriki Böyük Vətən müharibəsinin qurtarmasının ildönümü münasibətilə yox, əslində, 1945-ci il sentyabrın 2-də başa çatmış İkinci Dünya müharibəsinin qurtarmasının ildönümü münasibətilə təbrik adlandırıb.

Elə düşünürsünüz ki, baş nazir və ya onun aparatı yanılıb? Əsla yox! Bu müharibə Paşinyanlar sülaləsi üçün Böyük Vətən müharibəsi yox, həqiqətən İkinci Dünya müharibəsi - onların uduzduğu müharibə idi.

Beləliklə, Nikol Vovayeviç, vaxt itirməyin, babanıza onun birbaşa komandiri olmuş Qaregin Njdenin monumenti ilə yanaşı, heykəl qoyun. Dəqiq bilin, bal ilə dolu çəlləyə nəinki bir qaşıq, hətta iki qaşıq qatran əlavə edilməklə onun dadı dəyişməyəcək.







Arm.Inf.Batl.814
Absendender Truppenteil
Feldpost-Nr. 35 542
Datum 10.11.1943
Grabmeldung
Arm.Inf.Batl.814 35 542
Paschinjan Nikolei
Familienname Vorname
Dienstgrad: Legionär
Geburtstag: 23.12.1913
Geburtsort: Dorf Jenukawan Kreis Idschewanski
Todestag: 29.9.1943
Todesort: Laz.Zwiahel
Kennzeichen der Erk. M.: Armen.Legion 8190
Muß unbedingt angegeben werden
Nationalität: Armenier
Nur bei Feindgefallenen
Vermerke über den Gefallenen:
Todesursache: Bauchschuss
Bei Freitod Grund:
Kriegerfriedhof Zwiahel
Begräbnisort
Zwiahel
Kreis Gemeinde
Einzelgrab ja Nr. 1972
Kameradengrab
Vermerke über die Grabstätte:
Skizze auf der Rückseite beifügen
Block XXII Reihe 1. 30.9.43.
An den
Wehrmacht-Gräberoffizier
Die gestellten Fragen sind lückenlos und gewissenhaft zu beantworten. — Klare und deutliche Schrift.

## Ermənistanda daha 180 nəfər koronavirusa yoluxdu




Ermənistanda COVID-19-a yoluxanların sayı 3718-ə qədər artıb. SİA xəbər verir ki, bu barədə ölkənin Xəstəliklərin nəzarəti və profilaktikası mərkəzi məlumat yayıb. Beləliklə, 12 mayla müqayisədə 180 yeni yoluxma qeydə alınıb. Ötən sukta ümumi yoluxma sayı 3538 nəfər olub. Həmçinin bildirilir ki, koronavirusdan ölənlərin sayı ötən sutka ərzində bir nəfər də əlavə olunmaqla 48 nəfərə çatıb. Eyni zamanda, koronavirusa yoluxaraq digər xəstəliklərdən əziyyət çəkənlərdən isə son sutka ərzində iki nəfər artaraq 21 nəfərə çatıb. Yeni məlumatlara görə, infeksiyadan 1500 nəfər sağalıb. Hazırda müalicədə 2149 nəfər qalmaqdadır.

# Hikmət Hacıyev: "Azərbaycan COVID-19-a qarşı mübarizədə də təşəbbüskar dövlət kimi çıxış edir"

***Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda koronavirus pandemiyasına qarşı ciddi mübarizə aparılır. Görülən işlər beynəlxalq ictimaiyyət tərəfindən də yüksək qiymətləndirilir və Azərbaycan dünyada nümunə kimi göstərilir. Azərbaycan milli səviyyədə əldə etdiyi nailiyyətlərin davamı olaraq, qlobal səviyyədə gedən prosesləri də yaxından dəstəkləyir və COVID-19 virusuna qarşı mübarizədə də təşəbbüskar bir dövlət olaraq çıxış edir.***

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev mayın 13-də Nazirlər Kabineti yanında Operativ Qərargahın koronavirusla bağlı keçirilən brifinqində bildirib.

"Belə ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə çox qısa bir vaxt kəsimində, yəni, aprelin 10-da və mayın 4-də iki mötəbər Zirvə görüşü - Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının və Qoşulmama Hərəkətının onlayn Zirvə görüşləri keçirildi. Bütün bunlar Azərbaycan Respublikası tərəfindən qlobal həmrəyliyə, əməkdaşlığa verilən töhfələrdir.




Hikmət Hacıyev deyib ki, Mayın 5-də quru sərhədi vasitəsilə 94 vətəndaşımızın İrandan Azərbaycana keçidi təmin olunub. Mayın 7-də İstanbuldan 212 vətəndaş ölkəyə gətirilib. Mayın 8-də Daşkənddən 50, mayın 11-də Baltikyanı ölkələrdən 52 vətəndaşımızın, mayın 12-də Rusiyada təhsil alan azərbaycanlıların ölkəyə gətirilməsi təmin edilib. 124 vətəndaşımızın Minskdən gətirilməsi həyata keçirilib. Mayın 14-də isə Kiyevdən də vətəndaşlarımızın ölkəyə gətirilməsi nəzərdə tutulur. Ölkəyə gətirilən şəxslər karantin müəssisələrinə yerləşdirilir və lazımi yardım göstərilir.

Prezidentin köməkçisi deyib ki, Azərbaycan koronavirusla mübarizədə bir sıra ölkələrə maddi və humanitar yardımlar göstərib və bu yardımlar davam edir.

Belə ki, Azərbaycan Macarıstan, Pakistan, Bosniya və Herseqovina, Tacikistan, Qırğızıstan və digər ölkələrə maddi və humanitar yardımlar göstərib. Hazırda Serbiyaya və fələstinli qaçqınlara da yardımların göstərilməsi istiqamətində işlər aparılır. Bütün bunlar Azərbaycanın koronavirusla mübarizəyə beynəlxalq səviyyədə göstərdiyi mühüm dəstəkdir.

## DSX-nın vəzifəli şəxslərinin qanunazidd əməlləri ilə bağlı cinayət işi başlandı



Baş Prokurorluğun Mətbuat xidmətinin rəhbəri Eldar Sultanov Dövlət Təhlükəsizliyi Xidməti və Baş Prokurorluğun Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin vəzifəli şəxslərinin qanunsuz əməllərinin ifşa edilməsi ilə bağlı keçirilən əməliyyata münasibət bildirib. E.Sultanov SİA-nın sorğusuna cavabında keçirilən əməliyyatı təstiqləyib.

Bildirib ki, DSX-nın Sahil Mühafizəsinin vəzifəli şəxslərinin qanunazidd əməlləri ilə bağlı Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində cinayət işi başlanıb, detalları barədə əlavə məlumat veriləcək.

Xatırladaq ki, Dövlət Təhlükəsizliyi Xidməti və Baş Prokurorluq tərəfindən həyata keçirilmiş birgə əməliyyat-istintaq tədbirləri nəticəsində Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin vəzifəli şəxslərinin qanunazidd əməllərinin qarşısı alınıb. Araşdırmalar davam etdirilir.

## "Azərbaycanda demokratik dövlət qurulub və inkişaf etdirilir"



"Azərbaycanda yeni siyasi sistemin formalaşması, ümümxalq, ümumdövlət maraqları naminə dialoqun aparılması və vahid mövqedən çıxışların müsbət nəticələr verməsi, qarşılıqlı anlaşma, əməkdaşlıq, partiyaların yaxşı təkliflərinə pozitiv münasibət, partiyaların fəaliyyətinə heç bir maneə olmaması, demokratik prinsiplərin əsas götürülməsi, mövqeyindən asılı olmayaraq, Cənab Prezidentin hər kəsə Azərbaycan vətəndaşı olaraq yanaşması ondan xəbər verir ki, Azərbaycanda demokratik dövlət qurulub və inkişaf etdirilir". Bu sözləri SİA-ya açıqlamasında Azərbaycan Sosial Demokrat Partiyasının (ASDP) sədri, Milli Məclisin deputatı Araz Əlizadə deyib.

Partiya sədri qeyd edib ki, ölkədə fikir plüralizmi də əsas amillərdən biridir. "Bütün qüvvələr hamısı birləşməli, bir yerə vurmalıdırlar. İstər müxalifət, istərsə də iqtidar nümayəndələri bir olmalı, birləşməlidirlər", deyə Araz Əlizadə bildirib.

# ÜST Azərbaycanı bir nümunə olaraq dünyaya göstərir

***Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupu formatında Zirvə görüşünün keçirilməsi bu təsisatın qlobal həmrəylik və əməkdaşlıq istiqamətində səmərəli platformaya çevrildiyini göstərir. Qlobal həmrəyliyin təmsilçisi rolunda çıxış edən Azərbaycanın təşəbbüsü ilə ard-arda iki mötəbər tədbirin təşkili ölkəmizin qlobal pandemiya ilə mübarizədə dünya dövlətlərini səfərbər etmək niyyətinin xoş təzahürü və beynəlxalq əməkdaşlığa töhfəsidir.***



*Xədicə Eminova,*
*YAP Sabunçu rayon təşkilatının 252 saylı məktəb-lisey ərazi ilk partiya təşkilatının sədri*

Koronavirus pandemiyasının ümumi bəlaya çevrildiyi bir vaxtda Azərbaycan Zirvə görüşünü təşkil etməklə hər zaman bir-birinə əks qütblərdə olan Qoşulmama Hərəkatı ilə Avropa İttifaqını bir araya gətirməyə nail olub. Avropa İttifaqının rəsmisinin Zirvə görüşündə iştirakı və çıxışı Qoşulmama Hərəkatının tarixində ilk dəfədir ki, baş verirdi. Bütün bunlar Azərbaycan Prezidentinin uzaqgörən siyasətinin nəticəsidir. Azərbaycanın beynəlxalq əməkdaşlığa və həmrəyliyə çağırışları və bu istiqamətdə fəaliyyəti dünya dövlətləri tərəfindən təqdir olunur və alqışlanır. 40-a yaxın ölkənin dövlət və hökumət başçılarının, Xarici İşlər nazirlərinin, BMT Baş Assambleyası prezidentinin, Afrika İttifaqı sədrinin, Ümumdünya Səhiyyə Təşkilatının Baş direktorunun iştirak etdikləri Qoşulmama Hərəkatının Təmas Qrupunun Zirvə toplantısı bir daha Azərbaycana etimadın göstəricisidir. Prezident İlham Əliyev videokonfrans iştirakçıları ilə Azərbaycanın təcrübəsini bölüşdü, ölkəmizin pandemiya ilə mübarizə istiqamətində atdığı addımları, bu istiqamətdə gördüyü işləri konfrans iştirakçılarının diqqətinə çatdırdı.

Ümumdünya Səhiyyə Təşkilatı məhz Azərbaycanı bir nümunə olaraq dünyaya göstərir və Azərbaycan Prezidentinin bu pandemiya ilə mübarizədə həm beynəlxalq səviyyədə göstərdiyi səyləri, eyni zamanda Azərbaycanın daxilində gördüyü işləri çox yüksək dəyərləndirir. Azərbaycan Prezidenti həm milli-regional, həm də beynəlxalq səviyyədə pandemiya ilə mübarizədə öz sözünü deyib, beynəlxalq birliyə həm təcrübəsini təklif edir, eyni zamanda humanist, insanpərvər mövqedən çıxış edərək maliyyə sıxıntıları çəkən ölkələrə yardımlar edir. Buna görə də Azərbaycan artıq beynəlxalq birliyin ən dəyərli üzvü statusunu qazanıb, təsadüfi deyil ki, ölkəmizə böyük inam var, Azərbaycanın dünyada nüfuzu getdikcə artır və sözü eşidilən bir ölkəyə çevrilib.

## "Müzakirələrdə hansı partiya iştirak etmirsə..."



"Biz AKP olaraq hesab edirik ki, Prezident Administrasiyasında bir sıra partiya sədrləri ilə görüşlər keçirib, müzakirələrin aparılması çox yaxşı haldır. Yaxın ünsiyyətin qurulması baxımdan bu cür dialoqların aparılması vacib məsələdir". Bunu SİA-ya açıqlamasında Azərbaycan Kommunist Partiyasının sədri Hacı Hacıyev deyib.

Onun sözlərinə görə, bu cür dialoqların keçirilməsini biz dəstəkləyirik və bir siyasi partiya olaraq bu istiqamətdə aparılan işləri yüksək qiymətləndiririk: "Hesab edirik ki, bir araya gəlib ölkəmiz qarşısında duran məsələlərin həllinə yönələn müzakirələrin aparılması vacibdir. Bu müzakirələrdə hansısa partiya və onun rəhbərliyi iştirak etmirsə, bu onların şübhəli fəaliyyəti yolu tutduqlarını göstərir".

H.Hacıyev onu da bildirdi ki, bütün dünyanın koronavirusa qarşı mübarizə apardığı bir zamanda, ölkə Prezidenti insanların sağlamlığına və sosial vəziyyətlərinin yaxşılaşmasına hesablanan mühüm qərarlar verdi, sərəncamlar imzaladı. Bütün bunları yüksək qiymətləndirir və buna görə ölkə Prezidenti İlham Əliyevə minnətdarlığımızı bildiririk".

***Gülyana***

## Azərbaycanda ödənişli avtomobil yolu nə vaxt istifadəyə veriləcək?



Bu ilin iyun ayından etibarən Azərbaycanda ilk ödənişli avtomobil yolu istifadəyə veriləcək. Bu barədə SİA-ya "Azərbaycan Avtomobil Yolları" Dövlət Agentliyinin Mətbuat xidmətinin rəisi Anar Nəcəfli məlumat verib.

Məlumatda bildirilir ki, Bakı-Quba-Rusiya sərhədi yoluna alternativ çəkilən M1 avtomagistralının 90 kilometrə yaxın hissəsi istifadəyə veriləcək: "Yolun həmin hissəsi iyun ayında açılacaq. Hazırda həmin hissədə quraşdırılmaq üçün turniketlər ölkəyə gətirilib. Hazırda həmin turniketlərin quraşdırılması prosesinə start verilib. Avadanlıqların quraşdırılma prosesi paralel olaraq aparılır. Yolun həmin hissəsi istifadəyə verilərkən artıq avtomagistral ödənişli olacaq. Hazırda tikintisi yekunlaşan hissədə nəzarət-buraxılış məntəqələrinin quraşdırılması üçün işlər aparılır". Qurum rəsmisi bildirib ki, avtomagistralda ödəniş məbləği bu ay ərzində müəyyənləşəcək: "Bununla bağlı ətraflı məlumat veriləcək. Hər kilometrə görə yük və minik avtomobilləri üçün ödənişlər fərqli olacaq".

# Paşinyanın babasının faşistlərə xidmət etməsi təəccüb doğurmur

## Nikol Paşinyanın babası barəsində yayılan məlumatlar Prezident İlham Əliyevin Qaregin Njde haqqında və ümumiyyətlə, işğalçı ölkənin yeni hakimiyyətinin mahiyyəti barədə dediyi sözləri bir daha təsdiqlədi

***Doğurdan da haqq nazilər, amma üzülməz. Elə son günlər baş verən olaylar bir daha göstrdi ki saxtakarlıq, yalan danışmaq ermənilərin qanındadır Bu fikir siyasətçilər və dahilər tərəfindən dəfələrlə deyilib və sübut edilib. Əslində, bu, çoxları üçün yenilik olmasa da, erməni baş nazir Nikol Paşinyan üçün hələ də anlaşılmazdır. Küçə "emokratı"nın yalanlar üzərində qurduğu utopik xəyalarını erməni xalqının başına yeridərək Ermənistanı "inkişaf etmiş ölkələr sırasına çıxaracığı" vədləri elə vədlər olaraq qaldı. Verilən vədlərə və yalanlara diqqət yetirək: Paşinyan deyirdi ki, "2019-cu ilin sonuna qədər Ermənistan iqtisadi artım baxımından ilk onluğa daxil olmasa da ilk 15 ölkə arasında yer alacaq".***









АРМЕНИЯ

**Армянские СМИ выяснили, что дед Пашиняна служил в рядах СС во время Великой Отечественной войны.**

Ранее Пашинян опубликовал фотографию деда и сделал запись: *«Никол Пашинян, 1913-1943. Служил в 554-м стрелковом полку 138-й стрелковой дивизии. Вечная слава павшим за Родину».* На сайте https://obd-memorial.ru /, где указаны данные погибших, пропавших без вести, погибших во время ВОВ, армянские СМИ искали данные опубликованного Пашиняном человека, и сайт выдал следующее:

**День рождения - 23.12.1913.**

**Место рождения - Армянская ССР, Енокаван.**

**Судьба - сотрудничал с врагом, погиб.**

**Дата смерти - 29.09.1943.**

**Сайт также опубликовал документ немецкого учета. (газета «ИРАВУНК»)**



Arm.Inf.Batl.814
Absendender Truppenteil
Feldpost-Nr. 35 542
Datum 10.11.1943

Grabmeldung

Arm.Inf.Batl.814 35 542
Paschinjan Nikolei
Familienname Vorname
Dienstgrad: Legionär
Geburtstag: 23.12.1913
Geburtsort: Dorf Jenukawan Kreis Idschewanski
Todestag: 29.9.1943
Todesort: Las.Zwiahel
Kennzeichen der Erk.M.: Armen.Legion 819o
Muß unbedingt angegeben werden
Nationalität: Armenier
Nur bei Feindgefallenen
Vermerke über den Gefallenen:
Todesursache: Bauchschuss
Bei Freitod Grund:

Kriegerfriedhof Zwiahel
Begräbnisort
Zwiahel
Kreis Gemeinde
Einzelgrab ja Nr. 1972
Kameradengrab
Vermerke über die Grabstätte:
Skizze auf der Rückseite beifügen
Block XXII Reihe 3 29.9.43
An den
Wehrmacht-Gräberoffizier

Die gestellten Fragen sind lückenlos und gewissenhaft zu beantworten. — Klare und deutliche Schrift.

Bu sözləri Nikol erməni sahibkarlar üçün yeni il qəbulu zamanı bəyan etmişdi. Söylədiyi yalandan cuşa gələn baş nazir Ermənistanın başa çatmaqda olan ildəki göstəricilərinin, nəinki Cənubi Qafqazda, hətta dünya ölkələri arasında da "rekord" qırdığını bildirirdi. "Novosti Armeniya" saytı Paşinyanın fikirlərindən sitat gətirib: "Ermənistan tərəfindən həyata keçirilən "bu uğur" nəinki Avrasiya İqtisadi Birliyi, hətta MDB ölkələri arasında ilk göstəricidir. Mən yüksək ehtimalla, iqtisadi artım baxımından Ermənistanın Avropada liderlər sırasında olacağına da şübhə etmirəm". Bəli, bu gün Paşinyanın hər sözü yalandır.

### Paşinyana vurulan ən ağır zərbə - Azərbaycanın qüdrətli reallığı

Ancaq Paşinyan bu qüdrətli reallığı görməsə də, Azərbaycan Prezidenti ona dəfələrlə dərk etdirib. 1962-ci ildən keçirilən Münxen Təhlükəsizlik Konfransı dünyanın ən nüfuzlu dialoq platformalarından biri sayılır. Belə bir önəmli tədbirdə Azərbaycan Prezidenti İlham Əliyev Ermənistanın hökumət başçısına tarixi dərs verdi. Prezident İlham Əliyev çıxışında Dağlıq Qarabağ, eləcə də Azərbaycanın digər tarixi əraziləri, o cümlədən İrəvanla, həmçinin Ermənistanın bir dövlət olaraq formalaşdırılması ilə bağlı tarixi faktlara söykənən tarixi çıxışı Paşinyanın yalanlarını darmadağın etdi. Və bu debatda, sadəcə, Ermənistanın baş naziri deyil, bütövlükdə erməni təbliğat maşını dünyanın gözü qarşısında Azərbaycan Prezidentinə məğlub olduğunu bir daha sübut etdi.

### Nikol Paşinyanın babası barəsində yayılan məlumatlar Prezident İlham Əliyevin Qaregin Njde haqqında və ümumiyyətlə, işğalçı qonşunun yeni hakimiyyətinin mahiyyəti barədə dediyi sözləri bir daha təsdiqlədi

Və Paşinyanın babasının faşistlərə xidmət etdiyi təəccüb doğurmur. Çünki Azərbaycan Prezidenti İlham Əliyev Ermənistanda faşizmin qəhrəmanlaşdırılmasının yolverilməz olduğunu dəfələrlə bəyan edib. Azərbaycan Prezidenti müxtəlif səviyyəli platformalarda bununla bağlı bəyanatlar səsləndirib. Dövlət başçısı alman faşizmi ilə əməkdaşlıq etmiş, buna görə SSRİ hüquq-mühafizə orqanları tərəfindən həbs olunmuş Qaregin Njdeyə Ermənistanda heykəl qoyulmasını da kəskin şəkildə pisləyib, bunun qəbuledilməz olduğunu bildirib. Prezident İlham Əliyev Rusiyanın TASS informasiya agentliyinə son müsahibəsində bildirmişdir ki, İkinci dünya müharibəsi iştirakçılarının abidələrinə qarşı vandalizm aktı, faşistlərə heykəllər qoyulması nifrət və ikrah hissi oyadır. Ölkə başçısı təəssüflə qeyd etmişdir ki, Ermənistanda faşist canilərinin qəhrəmanlaşdırılması həyat normasına çevrilir və buna konkret misal kimi, bir neçə il öncə Ermənistanda faşist cəlladı və caniyə, Njde ləqəbi ilə məşhur olan Qaregin Ter-Arutyunyana 6 metr hündürlüyündə heykəl qoyulduğunu xatırlatmışdır. Rusiya Federasiyası Xarici İşlər Nazirliyi, həm də Rusiya Federasiyası Müdafiə Nazirliyi tərəfindən dərc edilmiş sənədlərdə Q.Njdenin cinayətlərinin sübut olunduğunu deyən Prezident İlham Əliyev bu erməni faşistinin müharibə dövründə dediyi "Almaniya uğrunda həlak olan Ermənistan uğrunda həlak olur" sözlərini də diqqətə çatdırmışdır. Ölkə başçısı müsahibədə Ermənistanın yeni, özünü demokratik kimi göstərməyə çalışan rəhbərliyinin həqiqəti demək əvəzinə məşhur yazıçı Aleksandr Soljenitsını faşistlərin əlaltısı ilə müqayisə etməsini həyasızlığın yüksək dərəcəsi kimi qiymətləndirmişdir. Ermənistanın yeni liderinin faşisti müdafiə etməsinin böyük təəccüb, heyrət doğurduğunu bildirən Prezident İlham Əliyev əlavə etmişdir ki, erməni tərəfinin bu davranışı Ermənistanda hakimiyyətin dəyişə biləcəyi, lakin rejimin mahiyyətinin əvvəlki kimi qalacağı barədə fikrə əsas verir.

Bu günlərdə Ermənistanın baş naziri Nikol Paşinyanın babası barəsində yayılan məlumatlar da Prezident İlham Əliyevin Qaregin Njde haqqında və ümumiyyətlə, işğalçı qonşunun yeni hakimiyyətinin mahiyyəti barədə dediyi sözləri bir daha təsdiqlədi.

### Yevgeni Mixaylov: "Ermənistanın baş naziri Nikol Paşinyanın babasının nasistlərlə əməkdaşlıq etməsi barədə məlumat ölkənin yeni rəhbərliyinin ümumi davranış və qərarvermə modelinə uyğundur"

Bu reallığı rusiyalı mütəxəssis, ekspert və teleaparıcı Yevgeni Mixaylov bildirir ki, Ermənistanın baş naziri Nikol Paşinyanın babasının nasistlərlə əməkdaşlıq etməsi barədə məlumat ölkənin yeni rəhbərliyinin ümumi davranış və qərarvermə modelinə uyğundur: "İlk növbədə bu, Paşinyanın dünya ictimaiyyətinin və Rusiyanın faşist əlaltılarının qəhrəmanlaşdırılması və milli üstünlük ideologiyasının qəbulolunmazlığı çağırışlarına qulaq asmamaq niyyətini izah edir. Bir sözlə, erməni cəmiyyətinin ümidsizcəsinə faşizmə yoluxması artıq heç kimdə şübhə doğurmur. Faşizm xəstəliyi isə, ümumiyyətlə, ağır müalicə olunur. Uydurma xəyallarının arxasına düşən bu toplum Qaregin Njde kimi cəlladların sərsəm çağırışlarına əməl edərək, müxtəlif saxtakarlıqlara yol verməklə başqa xalqların əzəli torpaqlarının işğalına can atır, canilə-ri qəhrəmanlaşdırır. Amma elə həmin cinayətkar Q.Njdenin də dediyi kimi, saxtakarlıq tərəfdarı olan xalqın taleyi məğlubiyyət, köləlik, əzab olacaq. Şübhəsiz, Azərbaycanın doğma torpaqlarını işğalda saxlayan Ermənistanın bu aqibətlə üzləşəcəyi tarix çox da uzaqda deyil".

### Erməni KİV-i deyilən olayla bağlı Paşinyanın üstünə gedir

Ermənistanda, baş nazir Nikol Paşinyanın babası Nikol Paşinyanın nasist hakimiyyəti ilə əməkdaşlıq etdiyi barədə rüsvayçı faktı təsdiqləyən sənədlər ətrafında əsl qalmaqal yaranıb. Erməni saytı Yerevan.today-a istinadən bildirir ki, Böyük Vətən Müharibəsi zamanı vəfat etmiş və itkin düşmüş Sovet hərbçiləri haqqında məlumatları özündə cəmləşdirən ümumiləşdirilmiş elektron məlumat bankı - Memorial, Ermənistan hökuməti başçısının yaxın qohumunu ifşa edən məlumat və sənədləri təsdiqləyib. Və bu gün müstəqil erməni KİV-ləri, Memorial-da olan və baba Nikol Paşinyanı ifşa edən arxiv sənədlərini dərc etdilər. Eyni zamanda, erməni müxalifəti hökumət başçısını babası haqqında yalanlar yaymaqda ittiham edir, çünki faşizm üzərində Qələbənin 75-ci ildönümü ərəfəsində N. Paşinyan böyük Nikol Paşinyanı nasistlərlə döyüşlərdə həlak olan Qırmızı Ordunun döyüşçüsü kimi təqdim etdi. Sonradan məlum oldu ki, böyük Paşinyan həqiqətən də II Dünya Müharibəsində vuruşub və döyüş meydanında həlak olub, ancaq Qırmızı Ordu əsgəri formasında yox, faşist geyimində.

Müxalif erməni ekspertlərinin fikrincə, açıq ortaya çıxan fakt N.Paşinyanın nasist cinayətkarlarının, ilk növbədə, indiki Ermənistanın siyasi elitasının banisi elan edilmiş Qaregin Njdenin xatirəsinin əbədiləşdirilməsindəki prinsipial mövqeyini izah edir.

Beləliklə, bütün bu faktlar bir daha Ermənistanın faşist və təcavüzkar mahiyyəti növbəti dəfə sübut etdi. Bütün bunlar xəyal deyil, reallıqdır...

Paşiyanı da babasının aqibəti gözləyir. Haqq-ədalət sözsüz ki, vaxt gələcək öz yerini tutacaqdır.

**A.SƏMƏDOVA**

# Dünya nədən danışır, radikal müxalifət nədən?

## *Oktay Hacımusalı: "Azərbaycanın siyasi səhnəsində daha nə qədər qalmağı, daha nə qədər insanların gözlərini yağır etməyi düşünürsünüz, bəylər?"*

***"Bütün dünyanı öz cənginə alan koronavirus pandemiyası ətrafında bir aydır davam edən proseslər deyəsən radikal müxalifət deyilən kəsimə hələ də gəlib çatmayıb. Çünki, əgər çatmış olsaydı, təqribən otuz ildir davam edən baxış bucaqlarını azacıq da olsa dəyişdirər, heç olmasa bu pandemiya zamanında xalqının, dövlətinin yanında yer almağa cəhd göstərərdilər. Amma əksinə, radikalların menyusunda nə desəniz var, bircə iqtidarla birgə hərəkət etmək cəhdindən başqa". Bu fikirləri SİA-ya Türkiyədə fəaliyyət göstərən azərbaycanlı jurnalist, Türkiyə Jurnalistlər Birliyi Ankara şöbəsinin başqanı, gazeteanka.com informasiya portalının baş redaktoru Oaktay Hacımusalı deyib.***



Onun sözlərinə görə, illərdir öz aralarında yaşadıqları didişmələr, şəhid xəbərləri üzərindən yaradılan ucuz şoular, sosial problemlərini qabardıb amma bunun üçün çıxış yolları göstərməmələr, Consdan, Semdən mədəd ummalar əslində beləl追 onların gerçək sifətlərini bir daha ifşa etmiş olur: "Adam baxır belə və öz- özünə düşünür: Azərbaycanın siyasi səhnəsində daha nə qədər qalmağı, daha nə qədər insanların gözlərini yağır etməyi düşünürsünüz, bəylər? Koronavirus pandemiyası zamanında sağlam qalmaq naminə evdə oturan insanlar dövlətimizin millətimizə diqqət və qayğısının əyani şəkildə şahidi oldular. Kütləvi şəkildə əhalinin həssas təbəqəsinə həm dövlət, həm özəl qurumlar, həm də ayrı - ayrı şəxslər tərəfindən yardımlar olundu, insanlar həm öz aralarında həmrəy olmağı bacardılar, həm də xalq - hakimiyyət etalonu bir az da bərkimiş oldu. Sıravi insanlar belə koronavirusla mübarizə fonduna yardımlar etdilər. Həmin dövrdə bəs müxalifət nə ilə məşğul oldu?"

Azərbaycanlı jurnalist radikal müxalifətin əməllərini mərhələli şəkildə ifadə edib:

1.AXCP - Real qarşıdurması: bu qarşıdurma əsasən sosial şəbəkələrdə ön plana çıxdı. Real-çı deputat Altay Göyüşovun rəsimlərini paylaşıb altından söyüş yazan kim, Realı hakimiyyətə işləməkdə ittiham edən kim. Qısacası, biabırçılıq!

2.Əli Kərimlinin 55 illik yubileyi: Bu maddəni yazanda yadıma bir AXCP funksionerinin statusu düşdü və istər-istəməz dodağım qaçdı: "Atillanın layiqli davamçısı Əli bəy, 55 yaşın mübarək!" Bir neçə "qitə fəth edib" neçə - neçə ölkədən "bac" alan Əli bəyə bundan daha gözəl doğum günü təbriki yaraşmazdı hər halda! Bir az da irəli gedən həmin gənc AXCP funksioneri Əli Kərimlinin ona görə Elçibəydən də, Məmməd Əmin Rəsulzadədən də daha üstün olduğunu dedi və bu yerdə də bizi ağzı köpüklənə - köpüklənə "yaltaq" adlandıran klaviatura qəhrəmanları düşdü yadıma.

3. İsrarla Əli Kərimlinin Leninqrad mühasirəsinə bənzər bir mühasirəyə alınması kimi absurd bir fikir dolaşır müxalifət düşərgəsində. Güya iqtidar Əli bəyin internetini kəsibmiş, onun siyasi fəaliyyətinə və mübarizəsinə mane olurmuş... Hansı siyasi fəaliyyət? Hansı siyasi mübarizə? Dünyada baş verən bu boyda çalxantılardan dolayı tükü belə tərpənməyən Əli Kərimli özünə hansı haqla "siyasətçi" - deyir, onu da anlaya bilmiş deyiləm. Dövlətin öz vətəndaşına diqqət və qayğı göstərdiyi, pandemiya ilə mübarizədə yeni bir model ortaya qoyduğu bir dövrdə AXCP sədrinin hakimiyyətə qarşı etimadsızlıq yaratmaq cəhdləri belə baxanda başa düşüləndir. Çünki o, və onunkimilər əmrləri zatən hər zaman kənardan alıblar. Xalq da bunu çox gözəl bilir.

"Göründüyü kimi illərdir siyasi qrantyorların və sənəd alverçilərinin Azərbaycan siyasi mühitinin qanını zəli kimi sorması artıq insanlarda da qıcıq yaradır", deyə sonda bildirən O.Hacımusalı əlavə edib ki, ölkədə bütün sahələrdə aparılan köklü islahatlar və postpandemiya dövründə yaşanacaq olanlar Azərbaycan siyasi mühitində yeni simaların mövcudluğunu qaçılmaz hala gətirir: "Radikal müxalifət isə həmişə olduğu kimi yenə sinifdə qalıb".

***Rövşən RƏSULOV***

# "Büdcəyə vergidən daxilolmalar 8 milyard civarında nəzərdə tutulub"



"2020-ci ilin dövlət büdcəsində bu günə kimi rekord həcmdə vergi yığılmaları nəzərdə tutulub. Belə ki, 8 milyarda yaxın dövlət büdcəsinə vergilərdən daxilolmalar nəzərdə tutulmuşdur". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin Gənclər və idman komitəsinin üzvü deputat Cavid Osmanov növbəti dövrdə ölkə iqtisadiyyatının artımının əsas hərəkətverici qüvvəsinin hansı sahələri əhatə edəcəyindən danışarkən deyib.

Millət vəkili vurğulayıb ki, Prezident İlham Əliyev bu günlərdə TASS informasiya agentliyinə geniş müsahibə vermiş və müsahibədə bir neçə məsələyə toxunmuşdur, xüsusilə də, koronavirus pandemiyasına qarşı ölkədə aparılan effektli mübarizə tədbirləri haqqında, eyni zamanda post-pandemiya dövrü üçün də perspektivdə olan məsələlərdən danışaraq gələcəkdə Azərbaycan iqtisadiyyatının artımının əsas hərəkətverici qüvvəsinin hansı sahələri əhatə edəcəyindən bəhs etmişdir:

"Cənab Prezident İlham Əliyev ilk növbədə qeyri-neft sektorunun inkişafından bəhs etmiş və əlavə olaraq müsahibəsində qeyd etmişdir ki, biz artıq neftin mövcudluğunu unutmalıyıq və iqtisadiyyatımızın digər sahələrini ciddi şəkildə inkişaf etdirməliyik. Eyni zamanda iqtisadiyyatımızın artımının əsas hərəkətverici qüvvəsindən danışarkən burada aşkarlığın həyata keçirilməsi məsələsini də qeyd etmişdir. Bununla da Prezident, kölgə iqtisadiyyatından çıxmağın, vergidən yayınmaların qarşısının alınmasının, qeyri-formal məşğulluğun qarşısının alınmasının və s. bu kimi məsələlərin əhamiyyətini vurğulamışdır. Məhz, Azərbaycan iqtisadiyyatının artımının əsas hərəkətverici qüvvəsi bunlar olmalıdırlar".

Cavid Osmanov qeyd edib ki, son tədbirlər ölkəmizdə kölgə iqtisadiyyatına qarşı ciddi mübarizənin aparıldığını göstərir və eyni zamanda qeyri-formal məşğulluğun da qarşısının alındığı müşahidə olunur: "Bununla yanaşı vergidən yayınmaların qarşısı da alınır. Heç də təsadüfi deyil ki, elə 2020-ci ilin dövlət büdcəsində bu günə kimi rekord həcmdə vergi yığılmaları nəzərdə tutulub. Belə ki, 8 milyarda yaxın dövlət büdcəsinə vergilərdən daxilolmalar nəzərdə tutulmuşdur. Bu da qeyd edilən amillərin son dövrlərdə qarşısının alınmasından xəbər verir. Prezident İlham Əliyevin nitqində də konkret olaraq qeyd etdiyi kimi gələcəkdə də aşkarlığın təmin olunması ölkə iqtisadiyyatının artımının əsas hərəkətverici qüvvəsi olacaq və bu sahədə apardığımız mübarizə prioritet məsələlərdən birini təşkil edəcək".

***Nigar Məmmədova***

# Builki qəbul imtahanları gözlənilən nəticəni verəcəkmi?

***"Bildiyimiz kimi 3 martdan etibarən bütün təhsil müəssisələrində tədris prosesi dayanıb və qüvvədə olan qərara görə 4 may ilk dərs günüdür. Bu müddət ərzində 4447 orta məktəbdə 1.5 milyon şagird, 50-dən çox ali təhsil müəssisəsində 165 min tələbə, kollec və peşə təhsili müəssisələrində 30 minə qədər təhsil alan üçün ənənəvi dərs dayanıb və bu qədər insan evdədir. Dərslərdə fasilənin yaranması daha çox 1-4-cü siniflərdə və 9-11-ci siniflərdə təhsil alan şagirdlərə mənfi təsir göstərə bilər".***



Bu fikirləri SİA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib. O bildirib ki, 1-4-cü siniflərdə təhsil alan şagirdlərdə oxuma, anlama, dinləmə bacarıqları yeni formalaşır və bu qədər tədrisə ara vermək onlarda müəyyən qədər unutqanlıq yarada bilər: "Digər narahatlıq doğura bilən siniflər 9 və11-ci siniflərdir. Belə ki, bu siniflərdə təhsil alanları buraxılış və qəbul imtahanları gözləyir. Düzdür, əvvəlcə aprel ayında keçirilməsi nəzərdə tutulan buraxılış imtahanlarında şagirdlərin 1-ci sinifdən 11-ci sinfə qədər formalaşdırılmış səriştələrinin, bacarıqlarının yoxlanılması nəzərdə tutulurdu. Lakin ölkədə tədris prosesində tətilin müddəti öncədən proqnozlaşdırılandan da çox oldu".

Ekspertin fikrincə, həlli gözlənilən ən ciddi problem 9 və 11-cilərin imtahanıdır: "Artıq DİM ali və orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq istəyənlər üçün elektron ərizə qəbuluna başlayıb. 12 maydan - 5 iyuna qədər davam edəcək bu prosesdə 12 minə qədər abituriyent elektron ərizəsini təstiq edib. Uzun müddət orta məktəblərdə və hazırlıq kurslarında, repititorluqda ənənəvi dərslərin dayanması qəbul imtahanlarının nəticəsinə də təsir göstərəcək. Çünki heç də bütün şagirdlər "online" dərslərə qoşula bilməyib. Bununla yanaşı, "online" dərslərin keyfiyyəti də ənənəvi dərslərlə müqayisədə aşağı idi. Digər tərəfdən qəbul imtahanlarının keçən illə müqayisədə 1 dəfə keçirilməsi, sınaq imtahanlarının olmaması qəbul imtahanlarının nəticələrinə təsir göstərəcək".

***Nailə Məhərrəmova***





## Polis intihar etmək istəyən şəxsi xilas etdi

Qazaxda intihar etmək istəyən şəxsin həyatını polis xilas edilib. DİN-in Mətbuat Xidmətinin Gəncə regional qrupundan SİA-ya verilən məlumata görə, mayın 12-i saat 23 radələrində 22 yaşlı Ağstafa rayon Dağkəsəmən kənd sakini Adil Allahverdiyev Ağstafa çayının Qazax rayon ərazisindən keçən hissəsinin üzərində olan körpüdən özünü ataraq intihar etmək istəyib. Dərhal hadisə yerinə Qazax Rayon Polis Şöbəsinin əməkdaşları gələrək onunla profilaktiki söhbətlər aparıb. Buna baxmayaraq, A.Allahverdiyev özünü atmaq istəsə də, polis əməkdaşlarının çevikliyi və operativ reaksiyası nəticəsində gəncin həyatını xilas etmək mümkün olub.

# Paşinyan haqqında növbəti faktları keçmiş səfir açıqladı

## *Mikael Minasyan: “Paşinyanın çoxdankı arzusu idi ki, o Qagik Tsarukyandan yaxşı yaşasın, keyfiyyətli ömür sürsün”*

***Ermənistanın baş naziri Nikol Paşinyana qarşı erməni ictimaiyyəti tərəfindən ittihamlar səngimir. Onun bitib-tükənməyən mənfi cəhətləri istər sadə xalqda, istər mediada, istərsə də ictimai-siyasi şəxslərdə qıcıq yaradır. Bugünlərdə erməni baş nazirin babasının guya İkinci Dünya Müharibəsində “qəhrəmancasına vuruşaraq həlak olması” barədə sosial şəbəkədəki paylaşımının ardınca ölkədə nəşr edilən “İrvanuk” qəzetinin yalanı ifşa etməsi erməni cəmiyyətində ajiotaj yaratmış oldu.***



Məlum oldu ki, Nikol Paşinyanın babası əsir düşdükdən sonra faşist Almaniyasının xidmət edib və sovet qoşunlarına qarşı döyüşərək öldürülüb.

Lakin bu da son deyil. SİA xəbər verir ki, Ermənistanın Vatikandakı sabiq səfiri, keçmiş prezident Serj Sarqsyanın kürəkəni Mikael Minasyan özünün Facebook səhifəsində yeni videomüraciət səsləndirib. Bu barədə Sputnik Armeniya məlumat yayıb. Belə ki, Minsayan Paşinyan hökumətini pəjmürdə edən və xüsusilə baş nazirin korrpusiyalaşmış idarəçiliyini ifşa edən, habelə beynəlxalq mafioz qruplarla əlbirliyini üzə çıxaran informasiyaları ictimailəşdirib. SİTAT: “Mən deməliyəm ki, Nikol Paşinyan heç də populist deyil. Paşinyanın çoxdankı arzusu idi ki, o Qagik Tsarukyandan (erməni oliqarxı və siyasətçisi) yaxşı yaşasın, keyfiyyətli ömür sürsün. Paşinyan populizm qanunlarını pozdu, o dövlət oliqarxından başqa kimsə deyil”.

### “Xalqın hesabına on minlərlə dollarlar boş yerə xərclənir”

Sarqsyanın kürəkəni Paşuinyana xatırlatma edərək deyib ki, o öz ailə üzvləri üçün qiyməti 600-700 min dollar olan avtomobillər alıb. Onun sözlərinə görə, ölkənin birinci adamının və ailə üzvlərinin təhlükəsizliyini təmin etmək üçün əldə edilən bu kimi avtomobillər Ermənistanda son 30 ildə ümumiyyətlə olmayıb. Beləliklə, həyat qaydasnın poplizmlə bağlı olmadığını deyən Misanyan əlavə edib ki, buna misal olaraq,onun öz arvadı ilə Milanın La Skala operasına getməsini, Müqəddəs Lazar adasında səfərini də göstərmək olar. SİTAT: “Bu, xalqın hesabına edilir, on minlərlə dollarlar xərclənir. Buna baxmayaraq, Paşinyan İtaliyaya səfəri zamanı iki şeyə nail olub: mənasız yerə xəyala gətirilməyəcək məbləğdə vəsaitlər xərclənib, üstəlik İtaliya Senatının sədrinə Mikael Minasyanın Vatikanın zirzəmilərində gizlədildiyini deyərək, ona ittiham irəli sürüb. Eyni zamanda, çoxmilyardlı mükafatların da populizmlə ümumiyyətlə heç bir əlaqəsi yoxdur”.

### “İrəvanda əldə edilmiş qaçaqmal siqaretlərin Rusiyada tapılmasından sonra məlum olub ki, onlar “Mənim addımım”dan olan deputat, Paşinyanın qohumu Sipan Paşinyanındır”

Sabiq səfir bildirib ki, Ermənistanda hazırda iki qrup insanlar formalaşıb - onların bir hissəsi əvvəllər elə də yaxşı yaşamayıblar, indi isə xalqın hesabına şık, dəbdəbəli həyat sürürlər və xalqın özüdür ki, əvvəllər pis yaşayırdı, indi isə daha pis həyat sürür.

Onun sözlərinə görə, Paşinyan başa düşür ki, yaxın vaxtlarda baş nazir postunu itirəcək və bu səbəbdən daha çox vəsait yığmağa cəhd göstərir. Hətta buna görə beynəlxalq mafiya ilə anlaşmalara gedir. SİTAT: “İrəvanda əldə edilmiş qaçaqmal siqaretlərin Rusiyada tapılmasından sonra məlum olub ki, onlar “Mənim addımım”dan olan deputat, Paşinyanın qohumu Sipan Paşinyanındır. Sənədlərdə son məntəqə Əfqanıstan göstərilir. Lakin siqaretlər Rusiyada aşkarlanaraq müsadirə edilib”.

Ermənistanın Vatikandakı keçmiş səfiri təsdiq edir ki, S.Paşinyana dəstəyi N.Paşinyanın kadrı və arvadı Anna Akopyan və dövlət gəlirləri komitəsinin sədr müavini Şuşan Nersisyan dəstək göstəriblər. Ortaq kimi isə, A.Akopyanın qardaşı, “Mənim addımım”ın deputatı Qraç Akopyan çıxış edib. Göründüyü kimi, artıq N.Paşunyana qarşı sürülən ittihamlar artmaqdadır və bu reallıq bir daha sübut edir ki, onun hay-küylə, xalqı aldadaraq hakimiyyəti ələ almasından sonra Ermənistana və xalqına qarşı törətdiyi cinayətləri boş qalmayacaq. Hətta onun devrilməsi mümkünlüyü gündəmə gələ, bununla da özünün və yaxınlarının şık, dəbdəbəli həyatına son qoyula bilər.

**Rövşən NURƏDDİNOĞLU**

# “Erməni ideologiyası faşist ideologiyasından da irəlidir”

***“Dövlət başçısının bir fikri ilə erməni cəmiyyətinə verdiyi qiyməti onlarla, yüzlərlə tətqiqat əsərinə çevirməlidirlər ki, dünyanın da əsl həqiqətdən xəbəri olsun, erməni məkri ilə faşist məkrinin eyni kökdən bəhrələndiyini bilsinlər və bunun mahiyyətini dərk etsinlər”. Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin üzvü deputat Anar İsgəndərov Prezident İlham Əliyevin Ermənistanın faşist canilərini qəhrəmanlaşdırması ilə bağlı səsləndirdiyi fikirlərə münasibət bildirərkən deyib.***



Millət vəkili bildirib ki, əslində, Azərbaycanın dövlət başçısı İlham Əliyev hamının ürəyindən keçən və heç kəsin deyə bilmədiyini bir mənalı şəkildə dilə gətirdi: “Ermənistanın fəxr etdiyi II Dünya Müharibəsi illərində faşistlərə qulluq edən Qaragin Njde Sovet dövlətinə qarşı vuruşan insan olmuşdur. Burada təkcə azərbaycanlılar yox, müsəlmanlar yox, həmçinin slavyanlar, gürcülər və başqa xalqların nümayəndələri öldürülüb. Birmənalı olaraq, 1944-cu ildə Qaragin Njde Bolqarıstanda Sovet kəşfiyyatı tərəfindən saxlanılarkən bunların hamısını etiraf etdi. Lakin, çox təəssüflər olsun ki, nə Sovet dönəmində, nə də SSRİ dağılandan sonra heç bir dövlət rəhbəri və heç bir dövlətin bu dövrün tarixi ilə məşğul olan tarixçiləri bu məsələ ilə bağlı tarixi həqiqəti dilə gətirmədilər. Yəni, həqiqəti susmaqla cavablandırdılar”.

Millət vəkilinin sözlərinə görə, qürurverici haldır ki, Azərbaycan Respublikasının rəhbəri Ermənistanda faşist canilərinin qəhrəmanlaşdırılması ilə bağlı fikrini ortaya qoydu: “Dünənə qədər Sovet dövlətinə düşmən olan Qaragin Njdenin bu gün Ermənitanda heykəlinin qaldırılması da buna əyani misaldır. Hətta, bu gün Ermənitana rəhbərlik edən hökumət başçısının babasının da vaxtilə faşist Almaniyası tərəfindən Sovet dövlətinə qarşı, Sovet xalqına qarşı vuruşduğu məlum olub. Bütün bunlar onu göstərir ki, elə daşnak-sütunun ideologiyası, yəni, ermənilərin ideologiyası ilə faşist Almaniyasının ideologiyası biri-birinə oxşardır. Mən deyərdim ki, erməni ideologiyası faşist ideologiyasından da irəlidir. Bu mənada dövlət başçısının fikirlərini təqdir edirəm”.

Anar İsgəndərov qeyd edib ki, Azərbaycan tarixçiləri gələcəkdə bu istiqamətdə uğurlu tətqiqat işləri aparmalı və dövlət başçısının bir fikri ilə erməni cəmiyyətinə verdiyi qiyməti onlarla, yüzlərlə tətqiqat əsərinə çevirməlidirlər ki, dünyanın da əsl həqiqətdən xəbəri olsun, erməni məkri ilə faşist məkrinin eyni kökdən bəhrələndiyini bilsinlər və bunun mahiyyətini dərk etsinlər.

**Nigar Məmmədova**

# “İşğalçı ermənilər xalqımıza aid olan hər şeyi tarixdən silib”

“İkinci Dünya Müharibəsi illərində bir sıra erməni xadimləri və ayrı-ayrı qrupların faşist Almaniyasının kəşfiyyatı ilə əlaqərinin olmasına dair çoxlu sayda rəsmi arxiv sənədləri var. Njde və Dro haqqında sovet xüsusi xidmət orqanlarının hazırladığı məlumatlar bunu təsdiq edir”. Bunu SİA-ya millət vəkili Musa Qasımlı deyib.



Onun sözlərinə görə, bu şəxslər və digərləri təkcə 1914-1920-ci illərdə türkləri kütləvi şəkildə öldürməyiblər, eyni zamanda müharibə illərində rusları, digər slavyan xalqlarını da öldürməyə dair çağırışlar ediblər və onun həyata keçirilməsində iştirak ediblər: “Yəhudilərə qarşı Holokostda törədilən qətliamlarda ermənilərin də əli var. Erməni qruplarının əli Baltikyanı xalqların, gürcülərin və digərlərinin də qanına batıb. Bu gün Ermənistanda neonasizmin dövlət siyasəti olması, Njdeyə abidə qoyulması, adına küçə verilməsi əbəs deyil.

Paşinyan da həmin qanın və ideologiyanın daşıyıcısıdır. Erməni faşizmi alman faşizmindən daha dəhşətlidir. Hitler Almaniyası işğal etdiyi ərazilərdə əhalini qovmurdu, qədim tarix və mədəniyyət abidələrini dağıtmırdı, işğalçı ermənilər isə Azərbaycan ərazilərində və Azərbaycan xalqının tarixi torpağı olan indiki Ermənistanda xalqımıza aid olan hər şeyi şey tarixdən silib, qəbiristanlıqları dağıdıb”.

# DİN metro sərnişinlərinə növbəti dəfə xəbərdarlıq etdi




Daxili İşlər Nazirliyi (DİN) metro sərnişinlərinə növbəti dəfə xəbərdarlıq edilməsi barədə məlumat yayıb. DİN-in Mətbuat Xidmətindən SİA-ya verilən məlumatda deyilir: “Bildiyiniz kimi, Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarına əsasən mayın 9-undan etibarən sərnişindaşıma fəaliyyəti bərpa olunan Bakı Metropolitenində polis əməkdaşları gücləndirilmiş iş rejimində xidmət aparırlar. Yeni növ koronavirus infeksiyası (COVID-19) ilə əlaqədar Bakı Metropolitenində Polis Şöbəsinin şəxsi heyəti, həmçinin əlavə olaraq stansiyaların giriş-çıxışlarında xidmətə cəlb edilən polis və Daxili Qoşunların hərbi qulluqçuları metroya daxil olan sərnişinlərlə izahedici söhbətlər apararaq, onlardan mövcud qaydalara əməl etməyi tələb edirlər. Bu qaydalara görə, sərnişinlər “İctimai nəqliyyatda koronavirus infeksiyasının profilaktikasına dair metodiki göstərişlər”in tələblərinə əməl etməli, o cümlədən stansiyalara daxil olan zaman tibbi maska taxmalıdırlar.

Qeyd edək ki, polis əməkdaşları metropolitenə qaydalara məhəl qoymadan daxil olmaq istəyən şəxslərə əvvəlcə xəbərdarlıq edərək onlara stansiyaların girişində satışı təşkil edilən tibbi maskalardan almağı tövsiyyə edirlər. Bu tələbə də riayət etməyən şəxslər isə inzibati məsiuliyyətə cəlb olunurlar.

# Ruhunu şeytana satan "virtual terroristlər"



***Doğru deyirlər ki, bu siyasət elə bir şeydir ki, həqiqətən də onun nə dalı, nə də ki, qabağı görünmür. Xüsusilə də, koronavirus bütün dünyanı ağuşuna aldığı bir zamanda... Bu da təəccüb doğurmur. Çünki onların siyasətlərini özləri deyil, məhz başqaları yürüdür! Belələrinə isə siyasətçi yox, siyasətbaz deyilir. Diqqət yetirsək onu da görərik ki, müxalifət siyasətbazları arasında hər cür fərdlərə rast gəlmək mümkündür. Boş-boş vədlər verən, uydurma, həqiqətə uyğun olmayan, boğazdanyuxarı çıxışlarla lazımsız dividend qazanmağa çalışan, keçmişi olmayan, bu günü müəmmalı, sabahı isə görünməyənlərə bu müxalifətdə çox rast gəlmək olur.***

Ancaq nə fərqi var ki? Bütün bu kimi hallara baxmayaraq, həmin siyasətbazlar özlərini cəmiyyətə tam fərqli formada təqdim etməyə, yeni əslində olduqlarından fərqli görünməyə can atırlar. Bu tip siyasətbazların iddiaları isə reallıqla heç cür üst-üstə düşmür və belə davam edəcəksə, heç düşməyəcək də. Çünki onlar potensiallarını düzgün qiymətləndirmədən daim qədərindən artığına yiyələnməyə çalışırlar. Elə AXCP sədri Əli Kərimli, Müsavatın sabiq başqanı İsa Qəmbər, müsavat başqanı Arif Hacılı, "Milli Şura" sədri Cəmil Həsənli və... bu dəllallar və onların yan-yörələrində olan o oyunbazlar bütün oyunlardan çıxmağı bacarırlar. Hələ "cırtdan" partiyaların sədrciklərini demirəm. Onlar danışanda adam lap mat-məhəttəl qalır. Deyirsən ki, buna dağ versən, dağı ikicə dəqiqənin içində "yıxıb-qoyar böyrü üstdə".

Məsələn, VAMBP sədri Hacıbaba Əzimov, "Azadlıq" partiyasının sədri Əhməd Oruc, AXP sədri Pəhan Hüseyn və nə qədər belə tör-töküntülər var, danışanda şəxsən məni az qala xof tutsun. Hətta bəzi hallarda gecələr gözümə yuxu-zad da gəlmir. Qardaş, bir də görürsən ki, "cırtdan" partiyanın sədri sosial şəbəkədə, "virusa aludə olmaq yox, mitnqə çıxmaq" kimi "nəhəng" bəyanatlar verir ki, düşünürsən və deyirsən, belə getsə, bunlar "vot-vot" koronanı da "hop edəcəklər". Daha onlara deyən yoxdur ki, ay filankəs... sənin ətin nədir, budun nə?! Ancaq bir tərəfə baxanda, belə səviyyəsiz, savadsız və satqınlardan bundan savayı nə gözləmək olar? Sən hara, koronavirusla bağlı "siyasət aparmaq" hara...Çünki onların əsas amalı xalqın bu virusa düçar olması deyil, məhz daha çox gəlir əldə etmək, Qərbli Con, Devid əmilərindən qrantdan-filandan qazanıb cibişdana ötürməkdir. Və belə bir zamanda satqın virusların "lideri" Əli Kərimlinin bu günlərdə yenidən sosial şəbəkələrdə hay-həşir salaraq "bu gün ev dustağı olmaq insanların hüquların pozulmasıdır və hamılıqla öz hüquqlarınızı əldə etmək üçün mitinqlərə çıxın" deməsini görəndə, matım-qutum quruyur. Bu günə kimi görəsən belə bir savadsız necə bu illər ərzində partiyaya sədrlik edib? Aydındır, əlbəttə ki, bu illər ərzində Əli Kərimli xəyanəti, satqınlığı, iblis xisləti ilə erməni lobbisinin, anti-Azərbaycan dairələrin xidmətçisi kimi çıxış edib. Əlbəttə ki, bu 27 il ərzində Əli Kərimli hiyləgər planları ilə dostlarını, həmfikirlərini öz şəxsi ambisiyalarına və karyerasına qurban verməklə. Bu o iblis xislətli Əli Kərimlidir ki, hətta lider hesab etdiyi Əbülfəz Elçibəyin Türkiyədə müalicəsi üçün ayrılmış 150 min dolları, Çöhrəqaninin gözlərinin müalicəsi üçün Azərbaycanda toplanmış vəsaiti mənimsəyərək əsl simasını nümayiş etdirərkən heç ölüb-yerə də girmədi. Əksinə, ermənilərdən pul almaqla, rəqiblərinin əleyhinə bütün separat danışıqlara getməklə üzünə belə tüpürülən tüpürcəyi silib, o biri üzünə tüpürənləri də vecinə almadığını göstərməklə bir daha nə qədər ləyaqətsiz, mənəviyyatsız olduğunu göstərməkdədir. Və belə satqın və mənəviyyatsızlar koronavirusa qarşı mübarizə olaraq karantin qaydalarına əməl etmək üçün "evdə qal" kampaniyasının aparıldığı, hamının evdə oturduğu bir vaxtda özünün evdə qalmağını "ev dustaqlığı", "ev konslageri" kimi qələmə verərək və bu qanunları pozduğuna görə məsuliyyətə cəlb olunan şəxsləri "koronovirus məhbusları" elan edən ruhunu şeytana satan erməniqulbeçələrinin nə demək istədikləri bəllidir. Və hər dəfə sosial şəbəkələrdə belə hırıldaşan, quduzlaşan Əli Kərimli, Sevinc Osmanqızı, Cəmil Həsənli, Gültəkin Hacıbəylini... və bu kimi tarixin zibilliyində eşələnən virusların çışlarını görəndə, bir daha əmin oluram ki, virus üçün fərqi yoxdur ki, sən hansı partiyanın üzvüsən, amma təəssüf ki, "siyasi viruslar" üçün fərqi var.

Azərbaycanın güclənməsini istəməyən, onu daim tənəzzül edən, xaos, anarxiya girdabında boğulan bir ölkə kimi görmək istəyən antiazərbaycan dairələr bütün qüvvələrini cəmləşdirərək "ənənəvi üsullar"dan istifadə edərək ölkəmizə qarşı "qara piar" kampaniyası aparmaqla yanaşı, yeni məkrli planlar hazırlayıb, onları reallaşdırmaq üçün min bir oyundan çıxırlar. Və bu gün də Avropanın müxtəlif ölkələrində "mühacir" statusu ilə veyl-sərgərdan həyat tərzi yaşayan, xarici kəşfiyyat orqanları tərəfindən ələ alınan bəzi xəyanətkarların himayədarlığı və maliyyəsi ilə "söyüş makinası" funksiyasını yerinə yetirərək dövlətimizi, dövlətçiliyimizi və onların simvollarını alçaqcasına təhqir edən Qurban Məmmədov, Oruduxan Teymurxan, Tural Sadıqlı, Həbib Müntəzir, Vidadi İsgəndərli, Məhəmməd Mirzəli kimi milli dönüklər, "virtual terroristlər" bu məkrli və çirkin prosesin önündə gedərək antiazərbaycan şəbəkənin sifarişlərini yerinə yetirmək üçün ən əxlaqsız, mənəviyyatsız üsullara əl atırlar.

"Belə qüvvə yoxdur və nə qədər ki, mən Prezidentəm, belə qüvvə olmayacaqdır"

Bəli, hələ də anlamırlar ki, Prezidentimizi xalq dəstəkləyir. Xalqın gücünün olduğu yerdə, heç bir xarici qüvvə nəsə etmək imkanına malik deyil: "Bu gün dünyada elə bir qüvvə yoxdur ki, hansısa qərarı bizə aşılasın, yaxud da bizə nəyisə diktə edə bilsin. Belə qüvvə yoxdur və nə qədər ki, mən Prezidentəm, belə qüvvə olmayacaqdır".

Bəli, istər ölkə daxilindəki, istərsə də müxtəlif xarici ölkələrdə məskunlaşmış antimilli ünsürlər bilməlidirlər ki, bu gün xalq öz Prezidentinə inanır və Onun yanındadır.

Və Vətən əxlaqından, milli mənlik şüurundan, məntiq və zəka gücündən məhrum olan, xalqa və milli dövlətçiliyin qəsdinə duran bu "ruhunu şeytana satan" xəyanətkarlar isə gec-tez öz layiqli cəzalarını alacaqlar.

**RƏFİQƏ**

# "Radikal müxalifət özünün ən zəif dövrünü yaşayır"

***"Ümumiyyətlə, indiki zamanda Azərbaycan hakimiyyəti, iqtidar özünün ən güclü zamanını, radikal müxalifət isə özünün ən zəif dövrünü yaşayır. Çünki onlar sosial bazadan demək olar ki, məhrum olub, əhatəsi isə getdikcə daralır.***

Belə məqamda Azərbaycan iqtidarı bütün müxalifətə, o cümlədən radikal müxalifətin özünə də əl uzatdı. Hətta deyərdim ki, bu sıradan elə-belə ekspromt hadisə deyil. Çünki dövlət başçısı Prezident seçiləndən sonra ilk andiçmə mərasimindən bu yana islahatlar proqramını elan etdi". Bunu SİA-ya açıqlamasında Vəhdət partiyasının sədri, millət vəkili Tahir Kərimli deyib.

Partiya sədrinin sözlərinə görə, dövlət başçısı bütün sahələrdə islahatlarla yanaşı eyni zamanda Azərbaycandakı demokratik mühitin gücləndirilməsi, çoxpartiyalılıq sisteminin daha yaxşı təmin edilməsi üçün bir sıra proqram və layihələrlə çıxış etdi: "Həmçinin Azərbaycan Milli Məclisində çox ciddi dəyişikliklər oldu. Tarixdə ilk dəfə olaraq parlament rəhbərliyində müxalifət nümayəndəsi müavin statusuna yiyələndi. Milli Məclisin Komitə sədrlərinin müavini, İntizam Komissiyasının sədr müavini müxalifət nümayəndələri oldu. Cənab Prezidentin bir sıra sahələr üzrə təklifi anlaşıqlı qarşılandı. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev radikal müxalifət istisna olmaqla bütün müxalifət partiyalarının rəhbərləri ilə görüşlər keçirdi. Həmin görüşdə çox xoş bir aura yarandı və insanlar bir-birini başa düşməyə başladılar. Xüsusilə pandemiya şəraitində əməkdaşlığın nə qədər zəruriliyi önə çəkildi.



Prezidenti İlham Əliyev mayın 12-də Sumqayıtda "Gilan Tekstil Park" Məhdud Məsuliyyətli Cəmiyyətinin tibbi maska fabrikinin və tikiş fabrikinin nəzdində fəaliyyət göstərən qoruyucu kombinezonların istehsalı müəssisəsinin açılışında da bir daha vurğuladı ki, Azərbaycan xalqı və cəmiyyəti pandemiyaya qarşı mübarizədə yekdildir və inanıram ki, bu belə qurtarandan sonra da özünün bu yekdilliyini qoruyub saxlayacaqdır. Əlbəttə ki, belə vəziyyətdə radikal müxalifətin cığallıq etməsi, ona uzadılan əldən imtina etməsi ilə onu daha da quyuya saldı. Onlar elə zənn etdilər ki, radikallıq etməklə ətraflarında müəyyən sosial qüvvə toplaya və güc mərkəzinə çevrilə biləcəklər. Ancaq insanlarımız onların yolu ilə getmədilər. Xalqımız pandemiyaya qarşı mübarizə şəraitində bütün iqtisadi proqramların yerinə yetirilməsini ancaq iqtidardan gözlədi".

***Ceyhun Rasimoğlu***

# Müxalifət dövlətin atdığı addımları dəstəkləyir

## *Sərdar Cəlaloğlu: "Azərbaycan müxalifəti korrupsiyaya qarşı mübarizədə İlham Əliyevi dəstəkləməlidir"*

***Prezident İlham Əliyev tərəfindən həyata keçirilən çoxşaxəli sosial-iqtisadi islahatlar fonunda kadr və siyasi islahatlarının da reallaşdırılması Azərbaycanda mövcud olan demokratik mühitin, sabitliyin və eyni zamanda dialoq mühitinin yüksək səviyyədə formalaşması reallığını təsdiq etməkdədir.***



Bu gerçəklik həm də belə qənaətə gəlməyə zəmin yaradır ki, artıq Azərbaycanda yeni siyasi sistem formalaşır. Xüsusilə, bu ərəfədə ümumxalq, ümumdövlət maraqları naminə dialoqun aparılması və vahid mövqedən çıxışların edilməsi müsbət nəticələr verir, habelə qarşılıqlı anlaşma, əməkdaşlıq, dialoq siyasi sistemin yeni konfiqurasiyasını yaradır.

Daha bir mühüm məqam ölkədə siyasi baxışında asılı olmayaraq bütün partiyaların fəaliyyətlərinə geniş imkanlar yaradılıb. Daha dəqiq desək, dövlət tərəfindən partiyaların fəaliyyətinə heç bir maneə yoxdur, demokratik prinsiplər, azad fikir, azad söz əsas götürülür.

Azərbaycanda siyasi dialoq imkanları artıb

Ən əsası isə, Prezident İlham Əliyev cənabları fəaliyyətində heç bir vətəndaşın mövqeyindən asılı olmayaraq ona Azərbaycan vətəndaşı olaraq yanaşır, hər kəsin siyasi mövqeyinə hörmətlə yanaşılır, qarşılıqlı anlaşma və həmrəylik reallığı özünü təsdiq edir.

O da əbəs deyil ki, müxalifət partiyalarının rəhbərləri də ölkə başçısının həyata keçirdiyi siyasəti dəstəkləyən fikirlərini bildirir, xüsusilə belə bir çətin məqamda həmrəylik çağırışları ilə yadda qalırlar. Misal üçün, dövlət başçısının korrupsiya və rüşvətxorluğa qarşı apardığı amansız mübarizə və s. qətiyyətli qərarlar dəstəklənir və alqışlanır.

"Azərbaycan müxalifəti korrupsiyaya qarşı mübarizədə İlham Əliyevi dəstəkləməli və bu tarixi şansın əldən çıxmasına imkan verməməlidir". SİA xəbər verir ki, bu fikirlə Azərbaycan Demokrat Partiyasının (ADP) sədri Sərdar Cəlaloğlu çıxış edib və bildirib ki, bu gün korrupsiyaya qarşı mübarizə müsbət qiymətləndirilməlidir.

Bu kimi çıxışlar edən digər müxalifət partiya rəhbərləri də eyni mövqeləri bölüşür, Azərbaycanda siyasi dialoq imkanlarının artdığını bildirirlər. Bu amil isə artıq yeni dövrün və yeni çağın reallıqları kimi də dəyərləndirilə bilər. Əlbəttə ki, konstruktivlik və dövlətçilik prizmasından kənara çıxmayan istənilən müxalifətyönü siyasi təşkilatların rəhbərlikləri, partiya üzvləri də dövlət başçımızın vurğuladığı kimi Azərbaycan vətəndaşı olaraq, əldə edilən uğurlara davamlı dəstək göstərəcəklərini bəyan etməkdədirlər.

# "Cəmil Həsənli namərdliyin, ikiüzlülüyün əsasnaməsini, kodeksini yazacaq adamdır"



**Demokratik Maarifçilik Partiyasının sədri, millət vəkili Elşən Musayevin SİA-ya müsahibəsi**

***- Elşən müəllim Əli Kərimli hər dəfə iddia edir ki, guya onun internetini kəsirlər, telefonla danışıqlarına müəyyən məhdudiyyətlər qoyulur. Bu kimi iddiaları növbəti şou yaratmağa hesablandığını demək olar?***

- Əli Kərimli siyasətdə bitmiş adamdır. Bitmiş adamlarınsa itirəcəyi heç nə olmur. Ona görə hər namərdliyə, riyakarlığa, yalana, kələkbazlığa gedirlər, imza atırlar. Üstəlik, beləri daim eyforiyada olurlar, fantaziyalara qapılırlar, hallüsinasiyalar görürlər, zaman-zaman bütün "axırıncı variant"lara əl atırlar. Yəqin həmin "axırıncı variant"lardan biri də internetin və telefonun kəsilməsi ilə bağlı görülən yuxuların təqdimatı və ya sosial şəbəkələr üzərindən ifadə olunan saxta məlumatlardır. AXCP sədri deyir ki, informasiya blokadasındayam. Amma gözünün içinə qədər yalan deyir. Bunu öz ətrafından bir neçə nəfər də təsdiq edib ki, belə şey yoxdur. İnterneti də, telefonu da əvvəlkindən daha yaxşı işləyir. Yaxşı bəs bu uydurmaların səbəbi nədir? Cavab sadədir: "Bekarçılıq!" Məhz bekarçılıq. Əli Kərimli karantin dövründə bekar qaldığı üçün düşünüb ki, xəstə təxəyyülünə yeni çalarlar əlavə eləsin, yeni fantaziyalar yaratsın, özünü şişirtsin. Amma paralel fonda da anlamayıb ki, belə kustar, yabanı, mənasız, yaramaz üsullarla daha da rəzil olur, bitir, gözdən düşür. Feysbuk səhifəsində bütün "admin"lər adamın özüdür. Yazır və guya başqası yazır, bunun səhifəsinə. Eynən "Azadlıq" qəzetində olduğu kimi. Orda da bütün işləri daim özü görüb, Əli Kərimli. Özü-özündən müsahibə alıb, özü öz müsahibəsinə başlıqlar qoyub, özü sual ünvanlayıb, özü cavab verib. Biz zamanında deyəndə ki, bu insan xəstədir, bu adamın elədikləri normal deyil, ona psixiatr müalicəsi lazımdır, hələ şübhə edənlər tapılırdı. Oysa, baxın və görün. Artıq müalicədən də keçib. Vəziyyət dəyişib. Simptomlar artıb. Xəstəlik irəliləyib. Heç şübhə eləmirəm, rəhmətlik Ağabəy Sultanov sağ olsaydı, o belə Əli Kərimlini pasient kimi qəbul eləməzdi ki, gecikmiş mərhələdir.

***- Cəmil Həsənli də özünün təbliğatını qurmaq üçün şər və böhtan kampaniyasınından istifadə edir. Sizcə, bu cür metodlarla siyasətdə kiminsə diqqətini cəlb edib, siyasi uğur qazanmaq olarmı?***

- Cəmil Həsənli namərdliyin, ikiüzlülüyün əsasnaməsini, kodeksini yazacaq adamdır. O məhz bu istiqamətdə formalaşıb, ixtisaslaşıb. O özü də bilmir ki, nə işə, nə mərama qulluq edir. İndi də oturub Amerikada, qoca yaşında gah bığ çıxarır, gah saç uzadır, gah nağıl danışır, gah da Sevinc Osmanqızının şəninə sağlıqlar, mədhiyyələr deyir. Bu adamın bütün həyatı və siması "podoş" materialı ilə cılalanıb. O siyasətçi deyil, yalquzaqdır. O əsil deyil, dublikatdır, 7-ci sortdur, yabanı, cır məhsuldur, tülkünün insan cildinə girmiş formasıdır. Cəmil Həsənli hər şeyə "most" durub baxır, o hər şeyi tərsinə görür, çəpinə qiymətləndirir, şaquli analiz edir. Çox riyakar adamdır, çox! O qədər çox ki, içi və xisləti çürümə mərhələsindədir. Adam ağlını tamam itirib. Bu səbəbdən hədyanlar yağdırır, nifrinlər püskürür, böhtan kampaniyası aparır. Cəmil elə bir buqələmun, elə bir məddah, elə bir minsifətlidir ki, onun üçün toxunulmaz dəyər yoxdur. O siyasət taciridir, hərrac mütəxəssisidir. Ona görə də belə anti-milli ünsürlərin dediklərini diqqətə almamaq lazımdır. Qoy nə danışır danışsın. Danışdıqca özünü daha da bitirsin. Zatən Cəmil Həsənlinin nə qədər yaramaz adam olduğunu bütün Azərbaycan xalqı bilir. Və nə yaxşı ki, bilir.

- Müxalifət indiki karantin rejimində virtual aksiya keçirmək niyyətindədir. Sizcə bu nə dərəcədə onlar üçün uğurlu bir variant ola bilər?

- Radikal müxalifətin bütün həyatı virtualdır. Onların heç zaman canlı və real həyatla təması olmayıb. İndi də virtual mitinq keçirmək istəyirlərsə buyursunlar. İş yox, güc yox. Nəsə eləməlidirlər hər halda. Qaraguruhun təmsilçiləri haradasa bir-birini tərifləməli, haradasa saxta istehkam qurmalı, haradasa nağıl dünyasının daha böyük dərinliklərinə varmalıdırlar. Ayrıca, ortada gəzən bəzi radikal qıpçaqların "feyk" profilləri də istifadəsiz qalıb. Onları da haradasa realizə etmək, saxta say hesabı ilə imitasiya eləmək, xaricdəki qəyyumlara hesabat vermək lazımdır. Ona görə belə ideya irəli sürüblər. Biabırçı və məzlum ideya. Hansı ki, yarandığı, elan olunduğu gündən fiaskoya məhkumdur.

**Gülyana**

# Zaman və müddət heç nəyi dəyişməyib

## *Dağıdıcı düşərgədə qarşıdurmalar çox düyünləri açdı*

***Abırsızın abırı olmaz Bu aksiomadır. Ancaq qəribəsi odur ki, belə abırsızlar başqalarından siyasi ləyaqət tələb edir. Və ən gülünc doğuranı da odur ki, epidemiyanın tuğyan etdiyi məqamda sosial şəbəkələrdən çağırışlar edən bu abırsızlar başlayıblar satqın axtarışına. Bu o adamlardır ki, daim demokratiyadan, haqq və ədalət uğrunda sivil siyasi mübarizə aparmalarından pafoslu şəkildə danışan, özünü tərifləyən radikal müxalifət düşərgəsinin "ana", "ata" müxalifəti sayanlar görəsən satqını başqa yerdə niyə axtarır?. Elə satqın toplusu özləri deyilmi?. AXCP-dən tutmuş Müsavata, "REAL"-a, hətta "Osmanqızı" və "Azərbaycan saatı" kanallarına kimi, yalan danışdıqları qədər də satqın deyillərmi? ictimai rəyi zəhərlənmədən qorumaq üçün onların ifşası mütləqləşir. Bu mənada, müxalifət düşərgəsində qarşılıqlı saldırmalar o qədər geniş və çoxşaxəlidir ki, məsələ sistemli bir yanaşma tələb edir. Ona görə də, çalışacam ki, bütün detalları diqqətinizə çatdırım.***



### İsmayıl Cəlilov: "AXCP trolları çox pis, tərbiyəsiz insanlardır. tərəfdarları çobana ehtiyacı olan cinayətkarlar sürüsüdür"

30 ilə yaxındır ki, hakimiyyətə gəlmək eşqi ilə yaşayan, bunun üçün istənilən addımı atmağa hazır olan, yeri gələndə ermənilərlə belə əməkdaşlıq etməkdən çəkinməyən AXCP sədri Əli Kərimli qarşısına qoyduğu məqsəd və vəzifələri reallaşdıra bilmədikcə daha təhlükəli olmağa başlayır. AXCP sədri indi o qədər də təhlükəli olub ki, hətta yaxın ətrafına da hücum etmək, onlara zərər yetirməkdən belə çəkinmir. Görünür zaman və müddət heç nəyi dəyişməyib. Elə götürək Əbülfəz Elçibəydən bu tərəfə kimlərə xəyanət etməyib Əli Kərimli? Əslində baş verənlər Kərimlinin əsl simasıdır - satan və satılan, xəyanətkar, cinayətkar, iblisxislətli şeytan...

Elə bu günlərdə Avropada mühacir həyatı yaşayan İsmayıl Cəlilovun sosial şəbəkələr, youtube üzərindən Kərimliyə ünvanladığı suallar, eyni zamanda ittiham və haqlı iradlar da açılmayan düyünlərin açılmasına səbə olub. İsmayil Cəlilov bildirir ki, AXCP sədri özü heç bir səlahiyyət və vəzifə sahibi olmadan demokratik prinsiplərə qarşı çıxır, demokratiyanın əsas göstəricilərindən biri sayılan fikir, söz azadlığına qarşı çıxır, müstəqil medianın inkişafına mane olur: "Çünki müstəqil media Kərimlinin saxtakarlıqlarını, hakimiyyətlə mübarizənin dövlətçiliklə mübarizə ilə qarışdırmasını, eləcə də digər mənfi tendensiyaları açıb ortaya qoyur, Kərimlidən bütün bunlara görə cavab verməyi tələb edir. İ.Cəlilov bildirir ki, Əli Kərimlinin uğursuz fəaliyyəti barədə müzakirəyə görə AXCP sədrinin trollarının facebook üzərindən zərbələri ilə üzləşib. Bu gözlənilməndir. Çünki AXCP sədri Əli Kərimli onun "izolyasiya oyunları"nı ifşa edən və ümumilikdə cəbhə ilə məzələnən müxalifətçiləri ənənəvi formada "cəzalandırmaq" tapşırığı verməsi təəcübli deyil. Çünki AXCP sədri bilir ki, nə dağıdıcı düşərgədə, nə də cəmiyyətdə bir heçdir. Belə olan məqamda Əli Kərimli ona qarşı çıxanlara qarşı hücum tapşırığı ilə "varlığını" nümayiş etdirmək istəyir. İsmayıl Cəlilov Əli Kərimlinin söyüş söyəninə cavb olaraq bildirib ki, "eşşək anqırar tayını tapar" boş yerə deməyiblər... Deyirəm ki Kərimli utanmırmı? Görün ətrafında kimlər var. Mənə yazır məsləhət görürlər ki, bu mundarlarla işin olmasın. Başa düşürəm. Amma bilirsiz niyə paylaşıram? Əli Kərimlinin yan-yörəsində kimlər var, biləsiz deyə. Bunlar hamısı, hər birisi düşük cinayətkarlardır...".

### Mövqeyini satan indi nəyi satışa çıxarır?

İ.Cəlilov onu da bildirib ki, tənqiddən qorxan Əli Kərimlinin "demokrat" ideyalarına tüpürmək belə istəmirəm: "Onlar hətta söyüşləri belə, səhvlə yazan bisavad sürüdür. Bu adamlar məzarlığa çevrilmiş radikal müxalifətdə özlərini "lider" sayan uğursuzlar toplusudur. Onlar hirsli, ambisiyalı, kinli və həqiqəti ən müxtəlif formalı yalanlardan ucuz tutan satqınlardır. Əllərinə kiçik imkan düşərsə, maskaları yırtılır, kim olduqları dərhal aşkarlanır. AXCP sədri Əli Kərimli də siyasətimizin "ölü can"larından biri, kənar güclərin əlində marionetdir. AXCP trolları çox pis, tərbiyəsiz insanlardır. tərəfdarları çobana ehtiyacı olan sürüdür".

Total əksəriyyəti siyasi renegatlar, "demokratiya zombiləri"dir

İ.Cəlilov bildirib ki, Əli Kərimli "Əlinin papağını Vəlinin başına qoyaraq papaqsız qaldıqlarının fərqinə varmayaraq az qala kafeşantan məzhəkəsi yaradırlar: "AXCP sədri onun maraqlarına cavab verən, mənafelərini təmin edən istənilən adamı çox asanlıqla "mübariz", "siyasi məhbus" elan etməyə həmişə hazırdır. Sadalanan və hələ sadalamadığımız səbəblərdən Əli Kərimlinin ətrafında müstəqil, AXCP sədrinin voluntarist kursundan fərqli düşünən kimsə qalmayıb. Belə adamların hamısı ya partiyanı tərk edib, ya qovulub. AXCP sədrinin yaxın ətrafındakıların total əksəriyyəti siyasi renegatlar, "demokratiya zombiləri"dir. Bir məqamı da deyim ki, Əli Kərimlinin absurd iddialarının əksinə olaraq, təcrübə göstərir ki, Qərb Ermənistanı təkcə Paşinyan hakimiyyətə gələndən sonra yox, həmişə dəstəkləyib. Qeyd edilən 907-ci düzəliş də Ə.Kərimlinin mənsub olduğu hakimiyyətin dövründə Azərbaycana tətbiq olunub. Əli Kərimli fəaliyyətinin və iddialarının iki mənbəyi var: xarici sifariş və şəxsi mənafe. Əli Kərimlinin bütün siyasi bioqrafiyası Azərbaycan dövləti və xalqı ilə düşmənçilik üzərində qurulub. Ölkəsinə və millətinə az qala düşmən kəsilən, "Xalqım!" deyərək sosial şəbəkələrdə bloqerliyə partiya sədrliyindən tənəzzül etmiş bu adam çətin anlasın...".

Göründüyü kimi, bu gün AXCP trolları necə davranırlarsa, dünən də elə olub, sabah da bu cür davam edəcək, əlbəttə ki, AXCP düşdüyü iflas burulğanından xilas olmağa macal taparsa...

**Rəfiqə HÜSEYNOVA**

*Ermənilərin Qafqaza gəldikləri günə lənət yağdıran yerli ziyalılar onları Cənubi Qafqazda bütün qeyri-erməni xristian abidələrini məhv etdiklərini göstərir. Haylar, yunan, gürcü abidələrini məhv edərək onları erməniləşdirmişlər. "Gürcülərin tarixi-arxeoloji abidələrini onlar vicdansızcasına talayırlar, abidələrdən gürcü yazılarını silir, qədim boşalmış kilsələri zəbt edir... tarixi yalan uydurur, hər bir daşı gürcü çarlığından xəbər verən abidələrin qədim erməni abidəsi olduğunu göstərirlər"*

Ermənilər gürcü şərablarını ("Saperavi", "Sinandali") ABŞ-da nümayiş etdirərək onları "erməni şərabı" kimi təqdim edirlər.

Ermənilər Axalkalakidəki Samsari Qumrurd kilsəsinin qədim erməni olduğunu iddia edirlər. Əslində bu kilsələr VII əsrdə tiklimiş qədim gürcü kilsəsidir. Onların üzərindəki yazılar nusxaxucuri (qədim gürcü əlifbasında yazılan) yazılarıdır. Gürcü tədqiqatçısı Qivi Qaprindaşvili bu abidələr haqqında "Gürcüstanın həyatı" ("Kartlis sxovreba") əsərində məlumat verdiyini göstərir. Alim Cavaxetidə ermənilərinilərin gürcü abidələrinə təcavüzünü onların separatist meyillərilə əlaqələndirir. Gürcüstan Mədəniyyət Abidələrinin Mühafizəsi Nazirliyi ermənilərin gürcü abidələrinə təcavüzünün qarşısını almağın bir yolunu həmin abidələrin qeydiyyata alınması və pasportlaşmasında görür.

Şərqşünas gürcü alimi Bondo Arveladze 1995-ci ildə İrəvanda nəşr olunan "Gürcüstanda ermənil kilsələri" əsərinə cavab olaraq 1996-cı ildə "Gürcüstanda "erməni", yoxsa gürcü kilsələri" adlı fundamental bir əsər yazdı. Əsərdə göstərilir ki, son vaxtlar erməni tədqiqatçıları Gürcüstanın tarixi torpaqlarına göz dikiblər. Hətta xaricdən gələn mütəxəssisləri belə özləri qəbul edir və Gürcüstan kilsələri haqqında "tədqiqatlarını" sırıyasıyası da dəstək verirdi. Erməni kilsəsinin inşasına gəlincə, deyə bilərik ki, Qərbi Gürcüstanda-İmereti və Sameqrelo-Kolxitidə erməni kilsələri yalnız XIX və XX əsrlərdə inşa olunmuşdur. S.Karapetyan Gürcüstandakı, ələlxüsus Axalkalaki nahiyyəsindəki toponimlərin erməni mənşəyi barədə də söhbət açsa, gətirdikləri dəlillərin saxta olmasına, əlbəttdə, heç bir əsas qalmır. Tarixə bir daha nəzər yetirək, A.Erisyan 1891-ci ildə "Novoye obozreniya" qəzetində Tiflis, Axalkalaki, Askuri, Loru, Duşeti, Siqnaxi, Ozurqeti və başqa şəhərində sakinlərin əksəriyyətinin erməni olduğunu sübut-dəlillərlə şərh etməyə çalışır. Ancaq tək Ozurqetinin timsalında götürsək, "somexi" sözünün erməni olduğunu o vaxtlar onlar bilmirdilər. Soruşmaq istərdik ki, Ozurqetidə məskunlaşan ermənilər indi haraya yox oldular? Bəlkə quriyalılar elə təsir qüvvəsinə və ya möcüzəyə malik idilər ki, buradakı ermənilləri assimliyasiyaya uğratdılar? Bir sözlə, A.Erisyanın gözündə Gürcüstanda hər bir şey erməni "izi"nə malik imiş O da dünyasını dəyişdi, bir daha açıq qalmış suallara cavab tapa bilmədi.

Beləliklə, S.Karapetyan öz "əsəri"ndə R.Muradyana, o da öz növbəsində A.Erisyana istinad edir.

1885-ci ilin pravoslav idarəsinin yazıları Tiflisdəki, Mərkəzi Tarix Ar-

1996-cı ildə Lev Ohanesovun "Doğma Tiflisin erməni kilsələri" adlı kitabında ermənilərin öz əməlləri gürcülərə aid edilirdi. Guya Gürcüstanda erməni kilsələri üzərində yazıları gürcülər silmişlər. B.Arveladze haqlı olaraq yazır: "Ancaq tarix çox gözəl bilir ki, ermənilər öz fəndlərini bizə sırımağa çalışırlar".

Erməni saxta erməni alimləri öz yalanlarını "təsdiq etmək üçün" "qədim" saxta erməni mənbələrə istinad edirlər. Onlardan biri də guya hansısa erməni manax-alimin XIX əsrdə yazdığı "Böyük Ermənistana səyahət" əsəridir. Şübhəsiz ki, bu "əsər" XIX əsrdə deyil, XX əsrdə İrəvanda yazılmışdır.

Ermənilər Şərqi və Cənubi Gürcüstanın "tarixi erməni torpağı" olması üçün dəridən- qabıqdan çıxır, bunu Qərb ölkələrinin bütün rəhbərlərinə çatdırırlar. Onlar Gürcüstandakı gürcü kilsələrinin "erməni mənşəli olmasını təsdiqləyən" xəritələr tətbiq edib bütün dünyaya yayayırlar.

"Gürcü kilsələrinin "erməniləşdirilməsi" prosesi əsasən bu cür baş verirdi. Əlbəttə, bu işdə Eçmiədzin kahinlərinin və emissarlarının rolunu inkar etmək olmaz. Adətən, varlı ermənilər müflisləşmiş gürcü knyazlarının torpaq və malikanələrini alırdılar. Sonradan knyazın torpaq sahəsində yerləşən gürcü kilsələrinə er-




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# Ermənilər gürcülərin maddi mədəniyyətini oğurlayırlar

raq gürcü kilsəsini "erməniləşdirmək" və ya "qriqoriyanlaşdırmağa" cəhd edirlər. B. Arveladze yazır: "Erməni elmlər doktoru R.Muradyan Gürcüstanın milli sərvəti sayılan Msxetadakı Çvari monastrlar kompleksinin məhz ermənilər tərəfindən inşa edildiyini iddia edərək, buradakı kürsü daşının üzərindəki yazıları Fransada nəşr etdiyi kitabda dəyişərək məhz ermənilərə məxsus olduğunu təsdiq etməyə çalışmışdır. Ancaq şükürlər olsun ki, xarici mütəxəsisslər bu saxtakarlığı tez başa düşmüş və Muradyanın bu "əməliyyat"ını əsrin saxtakarlığı kimi qiymətləndirmişlər.

Belə əməllərində R.Muradyan tək deyil, İrəvanda fəaliyyət göstərən "Ermənistan memarlıq tədqiqatları təşkilatı" da bu qəbildəndir. Bu təşkilat "Axalkalak" adlı erməni, rus və ingilis dilində buklet buraxaraq Axalkalakinin qədim erməni şəhəri olduğunu təsdiq etməyə çalışırlar. 1995-ci ildə cənab Samvel Karapetyan bu təşkilatın "ötürməsi" ilə 1995-ci ildə "Gürcüstanda erməni kilsələri" adlı kitab dərc etdirdi"

Gəlin, heç olmasa ermənilərin gürcü torpaqlarında məskunlaşmasının tarixinə nəzər salaq. Əlbəttə, ermənilər Türkiyədə türk xalqına etdiyi xəyanətdən sonra ölkəni tərk edib, Gürcüstan torpaqlarına tərəf üz tutdu. Bu miqrasiya prosesinə çar Ru-xivində saxlanılırdı. 1965-ci ildə Gürcüstanın Mərkəzi İdarəsi həmin sənədləri, qanun pozuntusuna yol verərək, İrəvanın Mərkəzi Arxivinə təhvil vermişdir. Əlbəttdə, bu sənədlərin ermənilər tərəfindən ələ keçrilməsini, bizim məmurların millət qarşısında cinayət adlandırmaq olar.

Nəhayət, Eçmədzin emissarlarının Gürcüstana qarşı təzyiqləri həmişə olub, bu gün də davam edir. Bu gün də ilk erməni kilsəsinin nə vaxt tikildiyini demək çətindir. Ancaq gürcü və erməni kilsələrinin bir-birindən ayrılmasından sonra qarşı tərəf Tiflisdəki gürcü kilsələrinə də sahib çıxmağa çalışır. Əvvəla, ermənilər tarixən gürcü kilsələrinin ətrafında məskunlaşmağa cəhd göstərirlər. Burada öz ticarət əlaqələrini genişləndirir, habelə kilsənin bəzi əlamətlərinin dəyişdirilməsini də yaddan çıxarmayırlar. Nəticədə bir də görürsən gürcü tarixinə aid olan ornamentlər və yazılar itir, sonda kilsə üzərində erməni atributları peyda olur".

B.Arveladze ermənilərin gürcü ələ keçrilməsi tarixinin XVII əsrə gedib çıxdığını bu abidələrdlə ermənilərin qanlı düşməni kimi rəftar etdiklərini göstərir. Alim göstərir ki, heç bir işğalçı gürcü abidələrini məhv etməməli, ermənilər isə həyasızcasına onları "erməniləşdirməyə" cəhd etmişdir.

məni kahinlərinin yerləşdirilməsinə nail olur və nəhayət, gürcü knyazının əmlak payına daxil olan kəndlərə erməni mənbəni qəbul etmələrini əmr edirdilər. Kəndlər isə yeni sahibkarın əmrinə tabe olmağa məcbur olurdu. Beləliklə, gürcülər qriqoryanlaşdırılır, habelə onlara məxsus provoslav kilsələri də ermənilərin, daha doğrusu Eçmiədzinin təsiri altına keçirdi.

Erməni alimləri Kvemo Kartli və Cavaxetiyada tarixi abidələrdən başqa, toponomlər, habelə qədim qəbirstanlıqlardakı yazılara istinadən deyirlər ki, bura qədim erməni torpaqlarıdır".

İvane Qvaramidze yazır: "Ermənilər nəinki bizim müqəddəs kilsələrimizə soxulurlar, həmçinin qəbiristanlıqlarımızı, qədim yazılarımızı belə dağıdıb, yer üzündən yox edirlər. Türklər, müsəlmanlar bizim kilsələrə hörmət-izzətlə yanaşdıqları halda ermənilər bizə qarşı çox düşmənçəsinə rəftar edirlər".

Q.Boçoridze özünün "Samstxe-Saatabaqoya səyahət" adlı kitabında ürək ağrısı ilə yazır ki, kilsələrin pəncərələri belə dəyişdirilərək üzərində erməni yazıları müşahidə edilir. Sonradan buradan götürülmüş gürcü yazıları olan daşlar erməni məktəbinin tikilməsində istifadə olunmuşdur".

Q.Boçoridze məktəbin işşasında istifadə olumuş daşın fotoşəklini çəkmək istəsə də, heç bir erməni ona köməklik göstərməmiş, hər bir vəchlə alimin işinə maneçilik törətmişlər. Sonradan gürcü kilsəsindən oğurlanmış daş lövhəni tapmaq mümkün olmadı. Ancaq Boçoridze pul gücünə daşı onların əllərindən alabildi. Da. lövhə bölgədən çıxarılaraq yaxın rayon olan Valeyə gətirildi. Daşın üzərindən kisəni çıxaranda nə görsələr yaxşıdır, gürcü yazısı tamamilə silinmiş və malalanmışdır ki, hərflər tam oxunmasın. Bu hadisənin timsalında ermənilərin "ənənəvi" saxtakarlığına nə ad qoymaq olar?. Əlbəttə, paxıllıq. Ermənilərin xəritəarayışında Cavaxetidə 127 erməni kilsəsinin olmasına işarə edilir. Onların 40-nın 1800-ci ilə qədər tikilməsi nəzərə çatdırılır. Belə demək olar ki, 1800-1900-cu illərdə ermənilər bu bölgədə 87 kilsə inşa etmişdir?. Bir sözlə, ermənilər sən demə, hər il bir fundamental kilsə inşa edirlərmiş. Əgər bu gün müasir texnikanın gücündən istifadə etsək, yenə hər il bir kilsə tikmək mümkün deyil. Bəs onda kələfin ucu harada gizlədilib?

Ermənilərin gürcü müqəddəs məbədlərinə iddiasının əsasında, guya Gürcüstan ərazisində 650 erməni kilsəsinin olduğunu elmi tədqiqatları ilə araşdıran, erməni tarixini saxtalaşdıran Samvel Karapetyan durur. Ən maraqlısı da odur ki, Samvel Karapetyan heç bir əsası olmadan tamamilə yalan məlumatla Vardziya kilsəsini "Vardzunik" adlandıraraq "erməni" abidələri sırasına aid edir. Bu məbədləri ələ keçirmək üçün müxtəlif vasitələrə əl atırlar. Buna misal olaraq, Gürcüstanın cənubunda yerləşən məşhur Vardziya kilsə kompleksində Müqəddəs Məryəm ananın vəfatı ildönümü mərasimində törədilən yanğını göstərmək olar. Bu zaman liberal kütləvi informasiya vasitələri gürcü pravoslav kilsəsini "yanğın təhlükəsizliyi qaydalarına" əməl etmədiklərinə görə günahlandırmışdılar. Yanğın şam masasının üstünə kiminsə yanan şam qoyma-sından başlıyıb. Bu yanğın nəticəsində kilsə divarlarında onun gürcü mənşəli olduğunu sübut edən unikal freskalar yanğın tullantıları ilə (karbon monoksitlə) örtülərək ziyan görmüşdü. Buradan belə nəticə çıxarmaq olur ki, kimsə bunu bilərəkdən etmişdi. Maraqlısı da odur ki bu yanğında məhz kilsənin gürcü mənşəli olduğunu sübut edən təsvirlər yanmışdır. Buradan belə qənaətə gəlmək olur: bunu xüsusi məqsədlə təşkil ediblər ki, kilsənin gürcü mənşəli olduğunu sübut edən ən bariz nümunələri yox etsinlər.

**VAHİD ÖMƏROV**
*Fəlsəfə üzrə fəlsəfə doktoru,dosent*

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# Səs

Son səhifə

14 may

## COVID-19-a yoluxanların mobil telefonları izləniləcək



***Cənubi Koreyada gecə klublarının və barların fəaliyyətinə icazə veriləndən sonra COVID-19 infeksiyasına yoluxanların sayı artıb. “İnterfaks” agentliyi yerli KİV-ə istinadən xəbər verir ki, bununla əlaqədar hökumət mobil telefonlar vasitəsilə əyləncə mərkəzlərinə baş çəkənlərin şəxsiyyətini müəyyənləşdirəcək.***

Seul şəhərinin meri Park Von Sun bildirib ki, son günlər koronavirusa yoluxanların əksəriyyəti bar və restoranların yerləşdiyi İtaevon rayonuna baş çəkən şəxslərdir.

P.Sun vurğulayıb ki, son bir neçə gündə bu rayonu 10 905 nəfər ziyarət edib. Həmin şəxslərin hamısının mobil telefonuna koronavirus testindən keçmək barədə mesaj daxil olacaq.

## Messi yeni imicdə



*İspaniyanın “Barselona” futbol klubunun kapitanı Lionel Messi imicini dəyişib. Belə ki, argentinalı futbol ulduzu bir neçə ildir saxladığı qalın saqqalını koronovirusla əlaqədar yaranmış fasilə vaxtı qırxıb. O, yeni imicdə şəklini Tvitter hesabında paylaşıb.*

## Sumqayıtda avtomobildən oğurluq edən saxlanılıb



Sumqayıtda oğurluqda şübhəli şəhər sakini saxlanılıb. AZƏRTAC Daxili İşlər Nazirliyinin mətbuat xidmətinə istinadla xəbər verir ki, Sumqayıt Şəhər Polis İdarəsinin 3-cü Polis Bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində şəhər ərazisində yeddi avtomobildən pul, iki ədəd mobil telefon, maqnitofon, noutbuk və sənədlər oğurlamaqda şübhəli bilinən Sumqayıt sakini, əvvəllər məhkum olunmuş A.Feyziyev saxlanılıb. Faktla bağlı araşdırma aparılır.

## Körpənin ilk altı ayında yeganə qidası ana südü olmalıdır



***Körpənin böyüməsi, sağlamlığı və infeksiyalardan qorunmasında ana südünün bir sıra üstün keyfiyyətləri var. Körpə davamlı olaraq ana südü qəbul edərsə, xəstəliklərə qarşı müqaviməti yüksək olar.***

Bakı şəhər 4 nömrəli uşaq poliklinikasının həkim-pediatrı Məlahət Qasımova AZƏRTAC-a deyib: “Körpə üçün ən faydalı qida olan ana südü immuniteti möhkəmləndirir, allergiyalardan qoruyur, xəstəliklərin qarşısını alır, zəka üstünlüyü yaradır. Aparılan tədqiqatlar nəticəsində sübut edilib ki, ana südü ilə qidalanan uşaqların zəkası daha iti və yaddaşı möhkəm olur”.

Lakin bəzi hallarda ananın südünün azalması ilə əlaqədar süni qidalara müraciət edilməsi zərurəti yaranır. Süni qidaların tərkibində zəruri qidalandırıcı maddələr, mikroelementlər və vitaminlər, körpənin normal böyüməsi və inkişafı üçün zəruri olan komponentlər var. Mütəxəssislər həmin qidaların uşağın altı ayından sonra istifadə edilməsini məsləhət görürlər.

“Süni qidaların tərkibində soya və palma yağı olur və onların əksəriyyəti inək südünün əsasında hazırlanır. İnək südünün zülalları körpə üçün yad elementlərdir. Ona görə də körpə altı aylığına qədər yalnız ana südü ilə qidalandırılmalıdır. Körpənin dünyaya gəldiyi ilk günlərdə ona ana südündən başqa qətiyyən heç bir qida verilməməlidir. Altı aydan sonra ananın südü azalarsa, həmin vaxt süni qida vermək olar”, - deyə həkim-pediatr bildirib.

Valideynləri ən çox narahat edən məsələlərdən biri də körpəyə su verilməsi ilə əlaqədardır. Bu barədə həkim-pediatr deyib: “Əgər körpədə hər ay çəki artımı baş verirsə, altı aya qədər ana südündən başqa maye almamalıdır. Ana südünün 60-70 faizini su təşkil edir və bu, körpənin suya olan tələbatını ödəyir. Əlavə su verilməsi uşaqlarda infeksion xəstəliklər, bağırsaq infeksiyaları və digər problemlər yarada bilər”.

Altı aydan sonra körpələrə su verərkən içərisinə şəkər qatılması da düzgün deyil. Bu, həm köp yaradır, həm də bir müddət sonra uşağın şirniyyata meylini artıra bilər. Körpəyə uşaq mağazalarında satılan su vermək daha yaxşıdır. Xüsusi tərkibli dietik sular körpələrin həzm sisteminə də müsbət təsir göstərir. Gün ərzində uşağa ümumilikdə 50-60 millilitr su vermək kifayətdir.

Uşaq qidalarının tərkibində süni boya, nişasta, duz, şəkər, kənar qoxu və dad olmamalıdır. Məhsulun tərkibi və təyinatı nəzərə alınmalıdır. Tərkibinin bitki və heyvan mənşəli olması qeyd olunmalıdır. Uşaq qidalarını nisbi rütubət 75 faizə qədər olan, quru yerdə istifadə edilən, qablaşdırılmanın növü və tərkibindən asılı olaraq 1-2 il ərzində saxlamaq olar.

## Bakı sakinini güllələyən şəxslər tutulublar



Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, cari il fevralın 22-də paytaxtın Biləcəri qəsəbəsi ərazisində Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş Ə.Abıyevə hər iki bud və qol nahiyələrinə tapançadan atəş açmaqla xəsarət yetirməkdə şübhəli bilinən Masallı rayon sakini, əvvəllər məhkum olunmuş P.Mayılov və hadisədə iştirak etmiş digər şəxslər - Hacıtəpə kənd sakinləri T.Salmanov və əvvəllər məhkum olunmuş S.Hüseynov Masallı Rayon Polis Şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılıblar. Onlar Binəqədi Rayon Polis İdarəsinin əməkdaşlarına təhvil veriliblər. Faktla bağlı təhqiqat aparılır.

**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600